№08 (183) 29.05.2015

Qəzet 2008-ci il martın 15-dən çıxır

# REGION PRESS

İctimai qəzet

“რეგიონ პრესი” საზოგადოებრივი გაზეთი

www.amm.ge



***26 May - Gürcüstanın Müstəqillik Günü və 28 May - Azərbaycanın Respublika Günü bayramları münasibətilə xalqlarımızı təbrik edir, onlara əmin-amanlıq, sarsılmaz dosluq və parlaq gələcək arzulayırıq!***



# Gürcüstanda Müstəqillik Günü qeyd olunub

Mayın 26-da Tbilisidə Gürcüstanın milli bayramı – Müstəqillik günü münasibətilə müxtəlif dövlət tədbirləri, sərgilər, konsertlər keçirilib. Tbilisidə Müstəqillik Günü ilə bağlı təşkil olunan tədbirdə Gürcüstanın prezidenti Georgi Marqvelaşvili, baş nazir İrakli Qaribaşvili, Gürcüstan parlamentinin sədri David Usupaşvili, xarici ölkələrin Gürcüstanda akkreditə olunmuş səfirləri iştirak ediblər.



Gürcüstan prezidenti G. Mar-qvelaşvili əlamətdar gün münasibətilə xalqı təbrik edib. Tədbirdə hərbi xidmətə çağırılan gənc əsgərlər hərbi and içiblər. Sonra "Delta" Dövlət Hərbi Elm Mərkəzinin hərbi texnikası nümayiş etdirilib, müxtəlif rəsm və kənd təsərrüfatı, sənaye və ərzaq məhsullarının sərgisi keçirilib, “SU-25”, “L-39” təyyarələri və “İpokez” helikopterləri Azadlıq Meydanında aviaşou nümayiş etdiriblər.

Bayram günündə baş nazir İrakli Qaribaşvili ailəsi ilə birgə Rustaveli prospektində təşkil olunmuş sərgilərə baxıb, əhali ilə görüşərək onları Müstəqillik Günü bayramı münasibəti ilə təbrik edib, uşaqlarla şəkil çəkdirib.

(Davamı səh. 2-də)

## Tbilisidə Azərbaycan səfirliyi Respublika Günü münasibətilə Heydər Əliyevin büstünü ziyarət edib

Azərbaycanın Gürcüstandakı səfirliyi 28 May - Respublika Günü münasibətilə Tbilisidə tədbir keçirib. Səfir Azər Hüseyn, səfirliyin əməkdaşları, həmçinin Azərbaycanın Gürcüstandakı iş adamları, gürcü və Azərbaycan ictimaiyyətinin nümayəndələri, jurnalistlər Respublika Günü münasibətilə ümummilli lider Heydər Əliyevin büstü önünə əklillər və gül-çiçək dəstələri qoyaraq ehtiramlarını bildiriblər.

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması barədə 28 may 1918-ci ildə Tbilisi şəhərindəki Qafqaz canişininin binasında Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsi elan olunub.



*Təbrik edirik!*

## Elman Kələyev "Əməkdar Jurnalist" adına layiq görülüb



Mayın 12-də Gürcüstanda nəşr olunan azərbaycandilli "Gürcüstan" qəzetinin redaktor müavini Elman Hüseyn oğlu Kələyev Gürcüstan jurnalistikasında uzunmüddətli uğurlu fəaliyyətinə görə "Əməkdar Jurnalist" adına layiq görülüb.

Elman Kələyev 1974-cu ildən indiyədək "Gürcüstan" qəzetində müxtəlif vəzifələrdə çalışıb. O, Gürcüstan və Azərbaycan mətbuatında, radio verilişlərində, Moskvada nəşr olunan "Azərbaycan panoraması" qəzetində müxtəlif səpgili yazılarla çıxış edib. 1978-ci ildən SSRI Jurnalistlər İttifaqının, 1990-cı ildən isə Gürcüstan Jurnalistlər İttifaqının üzvüdür. O, Gürcüstan prezidentinin 1997-ci il 16 oktyabr tarixli fərmanı ilə "Şərəf" medalına layiq görülüb.

Həmkarımızı ürəkdən təbrik edir və yeni-yeni uğurlar arzulayırıq!

**RegionPress**

## "Əsgər atası" filminin rejissoru Rezo Çxeidze vəfat edib

***Gürcüstanın Mədəniyyət Nazirliyi xəbər verib ki, gürcü kinorejissoru, SSRİ xalq artisti və Gürcüstanın xalq artisti Rezo Çxeidze 89 yaşında vəfat edib.***

Çxeidzenin ən məşhur filmi 1964-cü ildə çəkilmiş "Əsgər atası"dır.



1956-cı ildə Çxeidze kinorejissor Tengiz Abuladze ilə birgə çəkdiyi "Maqdananın eşşəyi" filminə görə Kann beynəlxalq kino festivalında "Qızıl palma budağına" və Edinburq beynəlxalq kino festivalının Birinci mükafatında layiq görülüb.

Çxeidze həmçinin "Şitillər", "İsanın qəbrindən şam", "Burada sübh çağıdır" kimi filmlərin müəllifidir.

Xatırladırıq ki, Revaz Çxeidze 1926-cı il dekabrın 8-də Kutaisi şəhərində, 1937-ci ildə güllələnmiş yazıçı və ictimai xadim David Çxeidzenin ailəsində anadan olmuşdu.


**Gürcüstan Olimpiya Komitəsi:** *Azərbaycanın ilk Avropa Oyunlarını keçirməyə tam haqqı var* — Səh.3-də

Baku 2015
1st EUROPEAN GAMES

*Fikrət Mursaqulov-60* **Dünyaya ürəyi ilə baxan şair** — Səh.5-də



Elxan Əsgərov

**LİBERLAND** *(referat əvəzi)* — Səh.8-də



İbrahimxəlil

**Tanış olun:** *Seymur Kamran oğlu Qarayev – dünya çempionu* — Səh.12-də



# Gürcüstanın Baş naziri İrakli Qaribaşvili İlham Əliyevə başsağlığı verib

***Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycan Prezidenti İlham Əliyevə başsağlığı verib.***



Başsağlığında deyilir: "Bakıda yaşayış binasında baş verən yanğın nəticəsində çoxsaylı insanın, o cümlədən uşaqların tələf olması və onlarla adamın xəsarət alması barədə xəbər məni dərindən sarsıtdı.

Kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, bu qəmli günlərdə yanınızda olduğumu bildirirəm".

# Ulu öndər Heydər Əliyevin xatirəsi Gürcüstanda ehtiramla anılıb

Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn, səfirliyin və konsulluğun əməkdaşları, SOCAR-ın Gürcüstan nümayəndəliyinin, eləcə də bu ölkədə fəaliyyət göstərən digər Azərbaycanın şirkətlərinin, Marneulidəki Azərbaycanlıların Mədəniyyəti Mərkəzinin, "Borçalı İrəli" İctimai Birliyinin, şəhər ictimaiyyətinin nümayəndələri, azərbaycanlı tələbələr mayın 10-da Tbilisinin mərkəzindəki Heydər Əliyev parkına gələrək Ulu Öndərin abidəsi önünə əklil qoyub, xatirəsini ehtiramla yad ediblər.



Sonra tədbir iştirakçıları Rustavi şəhərinə gedərək Ümummilli Liderin xatirəsini ehtiramla yad ediblər. Ulu Öndərin adını daşıyan parka toplaşanlar Heydər Əliyevin abidəsi önünə əklil və tər çiçəklər düzüblər.

# Gürcüstanda Müstəqillik Günü qeyd olunub

*(Əvvəli səh. 1-də)*

Sonra axşam saatlarında Gürcüstanın Müstəqillik Günü ilə bağlı Cansuq Kaxidze adına Mədəniyyət Mərkəzində bayram konserti təşkil olunub. Tədbirdə baş nazir İ. Qaribaşvili, sabiq baş nazir Bidzina İvanişvili, Ümumgürcüstan patriarxı və katalikosu II İlya və hökumət üzvləri, xarici diplomatik korpusların nümayəndələri iştirak ediblər.

Mayın 26-da saat 21 radələrində Gürcüstanın baş naziri İrakli Qaribaşvili Tbilisidəki Mtasminda parkında Müstəqillik Günü münasibətilə rəsmi qəbul keçirib. O, tədbirdəki çıxışında Müstəqillik Gününün tarixi əhəmiyyətindən danışıb və Gürcüstanın demokratik yol ilə inkişaf etdiyini bildirib.

Tədbirdə Gürcüstan hökumətinin üzvləri, parlament və dipkorpus nümayəndələri, xarici ölkə səfirliklərinin hərbi attaşeləri, ABŞ, Azərbaycan, Yaponiya və digər diplomatik korpus rəhbərləri iştirak ediblər. Tədbirdə atəşfəşanlıq təşkil olunub.

***

Mayın 26-da azərbaycanlıların yığcam yaşadığı Marneuli rayonunun mərkəzində də geniş tədbirlər təşkil olunub. Tədbirlərdə müharibədən fragmentlər, müharibə qəhrəmanlarının rəsmləri, foto sərgi, "Marneulini yaşıllaşdır!" aksiyası çərçivəsində gül və tərəvəz sərgisi, uşaqlar üçün əyləncə proqramları, gür-cü və Azərbaycan rəqsləri ifa edilib, attraksionlar və sonda yerli müğənnilər və məktəb şagirdlərinin iştirakı ilə qala konsert keçirilib.





Tədbirdə Kvemo Kartli qubernatorunun müavini Ramin İsmayılov, Marneuli bələdiyyəsinin sədri Nəbi Abdullayev, İcra başçısı Merab Topçişvili, onun müavini Kamandar İsmayılov və Marneuli bələdiyyəsinin digər rəhbər şəxsləri də iştirak edərək vətəndaşları müstəqillik günü münasibəti ilə təbrik etdilər.

**N.Məmmədzadə**

# Marneuli bələdiyyəsində Sereteli-Norqiuli-Böyük Muğanlı-II Kosalı yolunun yenidənqurma işləri davam edir

Marneuli bələdiyyəsinin Sereteli-Norqiuli-Böyük Muğanlı-II Kosalı yolunun yenidənqurma işləri davam edir. Layihə çərçivəsində 12 km-lik yol hissəsinin təmiri/asfaltlaşdırılması nəzərdə tutulur.



Qeyd olunan yolun təmir-bərpa işlərini Marneuli bələdiyyəsinin sədri Nəbi Abdullayev, Marneulinin icra başçısı Merab Topçişvili onun müavini Teymuraz Beridze gözdən keçiriblər. Yerli rəhbərliyin nümayəndələri layihə çərçivəsində işlə təmin olunmuş yerlilər ilə də söhbət ediblər. Qeyd etmək lazımdır ki, yolun çəkilməsi prosesində ümumən 120 nəfər işlə təmin olunub.

Sereteli-Norqiuli-Böyük Muğanlı-II Kosalı yolunun yenidənqurma işlərini "Ktsia" MMC həyata keçirir. Yolun infrastruktur layihəsi 2015 ci ilin aprelində başlanılıb və cari ilin sentyabr ayında sona çatacaq. Onun smeta dəyəri 4 700 000 larini təşkil edir.



Sözügedən layihə nəqliyyat yolları departamentinin maliyyə dəstəyi ilə həyata keçirilir.

**Turac İbrahimova**

# "Gənc Liderlər Klubu" layihəsi start götürdü

Tbilisi şəhərində "Gürcüstanın Azərbaycanlı Gənclərinin İnkişafı Akademiyasının", Barışıq və Vətəndaş bərabərliyi məsələləri üzrə Gürcüstanın Dövlət naziri Aparatının təşkilatçılığı ilə "Gənc Liderlər Klubu" layihəsi start götürdü. Layihə Gənclər və İdman Nazirliyinin "Gənclər siyasətinin gücləndirilməsi" proqramının istiqamətlərindən biri olan "Gürcüstanda yaşayan milli azlıqların inteqrasiyasına dəstək proqramı" çərçivəsində həyata keçirilir.

***Barışıq və Vətəndaş bərabərliyi məsələləri üzrə Gürcüstanın Dövlət nazirinin Kvemo Kartli bölgəsi üzrə nümayəndəsi Zaur Darğallı***: "Gənc liderlər klubu" layihəsi tələbələrimizin müxtəlif sahələrdə məlumat almalarına, gedən proseslərlə yaxından tanış olmağa yardımcı olacaq. Biz onlar üçün müxtəlif mühazirələr, nazirlərlə, parlament sədri ilə görüşlər təşkil edirik. Bizim fikrimizcə, tələbələr çox önəmli qrupdu və onların uğurlu inteqrasiya olmaları, əlaqələrinin genişlənməsi, inkişafı gələcəkdə bölgəmizin inkişafı üçün ən prioritet məsələdir. Bu gün dövlətimiz tələbələrimizə öz dövlətlərində qalıb özlərini inkişaf etdirib cəmiyyətdə layiqli yer tutmaları üçün lazım olan imkanları yaradır".



***Gürcüstanın Azərbaycanlı Gənclərinin İnkişafı Akademiyasının icraçı direktoru Murad Muradov***: "Məqsədimiz Gürcüstanın ali tədris müəssisələrinin milli azlıqlardan olan tələbələrində vətəndaş şüurunun artırılması, onların vətəndaş inteqrasiyası prosesinə və ictimai işlərə aktiv və effektiv qoşulmalarını təmin etmək, gürcü həmyaşıdları ilə ünsiyyət qurmaqda kömək etmək, gənclərdə dövlətçilik şüurunun və hisslərinin artırılmasını təmin etməkdir. Eyni zamanda layihədə Gürcüstanın müxtəlif ali tədris müəssisələrində təhsil alan milliyyətcə gürcü tələbələr də iştirak edir. Layihə 3 ay davam edəcək və onda başqa-başqa etnik qruplardan olan 40 tələbə, həmçinin "1+4" proqrami ilə təhsil alan abituriyentlər də iştirak edəcək. Layihənin sonunda iştirakçılara diplomlar təqdim olunacaq".

Layihə çərçivəsində mühazirələr, seminarlar, debatlar, dövlət və hökumət nümayəndələri ilə görüşlər və eyni zamanda, dövlət idarələrinə və strateji obyektlərə tədris səfərləri təşkil olunacaq.

**RegionPress**

# Gürcüstan prezidenti azərbaycanlı həmkarını Respublika Günü münasibətilə təbrik edib

***Gürcüstan prezidenti Georgi Marqvelaşvili azərbaycanlı həmkarı İlham Əliyevi Respublika Günü münasibətilə təbrik edib.***



Təbrikdə deyilir: "Zati-aliləri, Sizi Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan xalqı öz dövlətçiliyinin qorunması naminə çox sınaqlara sinə gərib və uğurlu, sabit və müstəqil dövlətini yaradıb. Bu gün biz aydın görürük ki, ölkəniz tərəqqi ilə irəliləyir. Mən qətiyyətlə inanıram ki, sizin prezidentliyiniz dövründə biz gələcəkdə Azərbaycan Respublikasının daha böyük uğurlarının və inkişafının şahidi olacağıq. Ölkələrimiz arasında sıx tarixi əlaqələri nəzərə alaraq, mən ümid edirəm ki, biz birlikdə gələcəkdə Gürcüstan və Azərbaycan arasında ənənəvi dostluq münasibətlərini daha da dərinləşdirəcəyik. Bu dostluğun xalqlarımızın rifahı naminə davam edəcəyinə əminəm.

Mən fürsətdən istifadə edib Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü daim dəstəklədiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

Zati-aliləri, icazə verin, dost Azərbaycan xalqına dərin hörmət və ən xoş arzularımı bildirim", deyə təbrikdə bildirilib.

# İlham Əliyev Gürcüstan Prezidenti Georgi Marqvelaşviliyə təbrik məktubu ünvanlayıb



Təbrikdə deyilir: "Gürcüstanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstanı dərin tarixi kökləri olan çoxəsrlik dostluq və mehriban qonşuluq münasibətləri birləşdirir. Əlamətdar haldır ki, istər ikitərəfli qaydada, istərsə də regional və beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası əməkdaşlıq münasibətlərimiz bütün sahələrdə dinamik inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Əminəm ki, həyata keçirdiyimiz irimiqyaslı iqtisadi layihələr xalqlarımızın rifahına, ölkələrimizin tərəqqisinə, regionumuzda sabitlik və təhlükəsizliyin bərqərar olmasına mühüm töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Gürcüstan xalqına sülh və firavanlıq arzulayıram".

# Dünya Bankı Gürcüstana 120 mln. dollar ayırıb

***Gürcüstan hökuməti ilə Dünya Bankı arasında iki müqavilə imzalanıb.***

Müqavilələni Gürcüstan maliyyə naziri Nodar Xaduri ilə Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Henri Keral imzalayıblar.

Anlaşmaya əsasən, dövlət və özəl sektorlarda islahatların həyata keçirilməsi üçünGürcüstana 120 milyon dollar ayrılıb. Vəsait Gürcüstan hökumətinə Avropa Yenidənqurma və İnkişaf Bankının xətti ilə veriləcək.

Tədbirdə N. Xaduri, H. Keral, habelə Gürcüstan iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini İrma Kavtaradze çıxış ediblər. Bildirilib ki, ayrılan vəsait dövlətin maliyyə səmərəliliyinin təkmilləşdirilməsi, inklüziv siyasətin səviyyəsinin yüksəldilməsi, dövlət institutlarının möhkəmləndirilməsi, büdcə planlaşdırılması və dövlət xidmətinin formalaşdırılması üzərində nəzarət, kapital bazarının inkişafı, biznes-mühit və özəl sektorun iqtisadi rəqabətinin gücləndirilməsi və digər sahələrdə islahatların həyata keçirilməsinə yönələcək.

# Gürcüstanda etnik azlıqların mədəniyyət nümunələrinin sərgisi açılıb

***Gürcüstan paytaxtındakı Qafqaz Evində Dünya Mədəniyyətinin Rəngarəngliyi Gününə həsr olunmuş sərginin açılışı olub.***



Sərgi Tiflisdəki Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə Gürcüstan Mədəniyyət və Abidələrin Mühafizəsi Nazirliyi tərəfindən təşkil edilib.

Sərginin açılışında Gürcüstan mədəniyyət və abidələrin mühafizəsi naziri Mixail Qiorqadze, Gürcüstan barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Paata Zakareişvili və digər rəsmi şəxslər iştirak ediblər. Sərgidə Gürcüstandayaşayan etnik azlıqlar sayılan kistinlər, çeçenlər, osetinlər, azərbaycanlılar, yezidi kürdlər, ermənilər, yəhudilər, çexlər, almanlar və latviyalılar öz mədəniyyət nümunələrini, xalça və musiqi alətlərini təqdim ediblər.

Tədbirdə Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin rəhbərliyi adından nazir M. Qiorqadzeyə Nizami Gəncəvinin gürcü dilinə tərcümə olunmuş "Leyli və Məcnun" poeması kitabı hədiyyə edilib.

# Gürcüstan Olimpiya Komitəsi: *Azərbaycanın ilk Avropa Oyunlarını keçirməyə tam haqqı var*

Bakıda keçiriləcək ilk Avropa Oyunlarının nəinki Azərbaycan, bütün region üçün böyük əhəmiyyəti var. Bu barədə Gürcüstan Milli Olimpiya Komitəsinin birinci vitse-prezidenti, Bakı-2015 Avropa Oyunlarında Gürcüstan missiyasının rəhbəri Elquca Berişvilli deyib.

Baku 2015
1st EUROPEAN GAMES

E.Berişvilli bildirib ki, Azərbaycanın ilk, tarixi Avropa Oyunlarını keçirməyə tam haqqı var: "Ölkə idman sahəsinə böyük diqqət göstərir, burada yaxşı inkişaf etmiş idman infrastrukturu var, azərbaycanlı idmançılar bütün yarışlarda, o cümlədən ən vacib - Olimpiya Oyunlarında uğurla çıxış edir".

Onun sözlərinə görə, Azərbaycan Avropa Oyunlarını yüksək səviyyədə keçirməyə hazırdır: "Ümid edirik ki, bizə qonşu və dost olan Azərbaycanın təşkil edəcəyi Oyunlar yüksək qiymət alacaq. Bakıdakı Oyunlardan sonra Tbilisidə Avropa Yeniyetmələrinin Olimpiya Festivalı keçiriləcək. Bu tədbir Bakıdakı tədbir səviyyəsində deyil, ancaq festivalda iştirak etmək üçün 50 Avropa ölkəsindən Gürcüstana təşrif buyuracaqlar. Beləliklə, regionumuz Avropa idman mərkəzinə çeviriləcək".

E.Berişvilli, həmçinin Gürcüstanın yaxşı nəticələr göstərəcəyinə ümid etdiyini bildirib: "Avropa Oyunlarında 105 gürcü idmançı iştirak edəcək. Onların arasında bizim ən güclü cüdoçu və güləşçilərimiz də olacaq".

# Yanacağın qiyməti yenə qalxdı

***Qiymətlər yanacaqların hər növündə 2 tetridən 5 tetriyədək bahalaşdı. Lukoil-in rəhbəri Şalva Mişveladze İPN-ə verdiyi müsahibəsində bildirib ki, yanacağın bahalaşma tendensiyası yenə davam edəcək.***

"Bizim şəbəkədə qiymətlər hər bir yanacaq növündə 5 tetri bahalaşdı. Bu bahalaşma tendensiyası yene davam edir, hansı ki bizim biznes üçün heçdə yaxşı hal deyil",- deyə Şavleq Mişveladze açıqlama verib.

Hal-hazırda "Lukoil"yanacaqdoldurma mərkəzində qiymətlər belədir: Euro Super 2.14 tetri, Premium Avantgarde - 2.04 tetri, Euro Regular - 1.88 tetri, Euro Diesel- isə 2.04 tetridir.



27-dan "Gulf"-da da qiymətlər bahalaşıb, şirkətinin rəhbəri Nino Gibladzenin verdiyi məlumata əsasən, qiymətlər hər bir yanacaq növündə 2 tetridən 4 tetriyədək qalxıb.

"Gulf Georgia"-da hal-hazırda qiymətlər belədir, G-force Premium- 2.09 tetri, G-force Euro Regular- 2.02 tetri, Regular 1.92 tetri, Euro Diesel - 1.91 tetri, G-force Euro Diesel- isə 2.09 tetri təşkil edir.

"Rompetroleum" şirkətinin müştəriləri isə bu qiymətə yanacaqdan istifadə edə bilərlər: Efix Super Euro - 2.18 tetri, Efix Euro Premium - 2.08 tetri , Euro regular - 1.88 tetri, Efix Euro Diesel - 2.11tetri, Euro Diesel - 1.91 tetri.

"SOCAR Georgia petroleum" müştəriləri isə bu qiymətlərlə yanacaqdan istifadə edəcəklər :

Super 2.14 tetri, Nano Premium- 2.04 tetri , Euro regular- 1.93 tetri, Nano Regular- 1.90 tetri, Nano Diesel- 1.89 tetri, Euro diesel- isə 2.07 tetri təşkil edir.

# Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Gürcüstanda karbamid zavodunun tikintisi layihəsinin həyata keçirilməsinin dayandırılması neft bazarındakı proseslərlə bağlıdır

***Trend-in məlumatına görə, bunu jurnalistlərə SOCAR-ın emal üzrə vitse-prezidenti David Məmmədov deyib.***



D.Məmmədov bildirib ki, bu layihənin reallaşdırılması özünümaliyyələşdirmə hesabına baş verməlidir: "Onun maliyyələşdirilməsi qismən sahibkarlar, qismən də bank kreditləri hesabına həyata keçirilməlidir. Dünya bazarında neftin qiymətinin kəskin düşməsi SOCAR-ın ölkə daxilində bəzi layihələrinin həyata keçirilməsini yubandırır. Bununla yanaşı, Gürcüstan bazarında vəziyyət bizimkindən tam fəqlənir, orada bazar olduqca mürəkkəbdir".

Onun sözlərinə görə, dünyada karbamid məhsullarının qiyməti də kəskin ucuzlaşıb ki, bu da Gürcüstan üçün layihəni maliyyələşdirməyi çətinləşdirdi: "Ölkə hökuməti layihənin reallaşdırılmasında maraqlıdır, çünki həmin layihə yeni iş yerlərinin açılmasını, yeni məhsulun istehsalını, büdcəyə gəlirlərin daxil olmasını nəzərdə tutur. Bununla belə, SOCAR yalnız öz hesabına layihəni maliyyələşdirməyi planlaşdırmır. Biz müəyyən hissəni artıq maliyyələşdirdik, lakin Gürcüstan tərəfindən maliyyələşdirmə bir qədər çətinləşdi ki, bu da layihənin reallaşdırılmasını dayandırdı".

# "Qazprom" rəhbəri: *Ukraynanın qaza görə Rusiyaya 29 mlrd dollar borcu var*

***Ukraynanın qaza görə Rusiyaya ümumi borcu bu günə 29 mlrd dollar təşkil edir.***

APA-nın "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bu barədə Rusiyanın "Qazprom" holdinqinin rəhbəri Aleksey Miller bildirib.

"Ukraynanın "al və ya ödə" cərimələri ilə bağlı qaza görə borcu bu günə 29,477 mlrd dollar təşkil edir, bunun 2,604 mlrd dolları 2013-2014-cü illərdə tədarük olunan qaza görə borc və üstünə hesablanan peniyadır (faiz)", deyə o bildirib.



Millerin sözlərinə görə, borcun 200 mln dolları Ukraynanın cənub-şərqinə tədarük olunan qaza görə yaranan borcdur: "Bu tədarüklərə görə "Naftoqaz Ukrayna" bizə ödənişlər etmir". Onun sözlərinə görə, borcun qalan hissəsi 2012, 2013 və 2014-cü illər üzrə "al və ya ödə" sxemi üzrə cərimələrdən ibarətdir.

# Vaşinqton meri 28 mayı Azərbaycan Milli Günü elan etdi




***Vaşinqton şəhərinin meri Müryel Bouzer (Muriel Bowser) 2015-ci ilin 28 may tarixinin ABŞ paytaxtında rəsmi olaraq Azərbaycan Milli Günü elan edilməsi barədə Bəyanat imzalayıb.***

Azərbaycanın ABŞ-dakı səfirliyindən APA-ya verilən məlumata görə, sənəddə 28 may 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin ilk dünyəvi müsəlman Demokratik Respublikası olduğu, bütün vətəndaşlarına bərabər hüquqlar, o cümlədən qadınlara seçkilərdə iştirak etmək hüququnu vermiş ilk müsəlman ölkəsi olduğu qeyd edilir. Azərbaycanın ABŞ-ın önəmli strateji tərəfdaşı olduğu vurğulanır. Bildirilir ki, sayı 40 milyondan artıq olan dünya Azərbaycanlıları 97 ildir ki 28 may tarixini Milli Gün kimi qeyd edir.

ABŞ paytaxtında 28 may tarixinin Azərbaycan Milli Günü elan edilməsi artıq bir ənənəyə çevrilib. Hazırda ABŞ-ın digər ştatlarında və ayrı-ayrı şəhərlərində də 28 mayın Azərbaycan Milli Günü elan edilir.

Qeyd edək ki, keçən ilin sonu Vaşinqtonun meri seçilmiş M.Bouzer şəhər tarixinə bu vəzifəyə seçilmiş ikinci qadın kimi düşüb.

# "Eurovision-2015" mahnı müsabiqəsinin qalibi 365 xalla İsveç təmsilçisi Mons Selmerlev olub

***49 xal toplayan Azərbaycan təmsilçisi Elnur Hüseynov müsabiqədə 12-ci yeri tutub.***

Mayın 23-də Avstriyanın Vyana şəhərində "Wiener Stadthalle" arenada "Eurovision-2015" mahnı müsabiqəsinin final şousu keçirilib.

Final mərhələsində 27 ölkə təmsilçisi öz səhnə perfomanslarını nümayiş etdiriblər.

Azərbaycan təmsilçisi Elnur Hüseynov səhnəyə 24-cü çıxaraq "Hour of the Wolf" mahnısını səsləndirib.

İştirakçıların səhnəyə aşağıdakı ardıcıllıqla çıxaraq mahnılarını ifa ediblər:

1. Sloveniya, 2. Fransa, 3. İsrail, 4. Estoniya, 5. Böyük Britaniya, 6. Ermənistan, 7. Litva, 8. Serbiya, 9. Norveç, 10. İsveç, 11. Kipr, 12. Avstraliya, 13. Belçika, 14. Avstriya, 15. Yunanıstan, 16. Monteneqro, 17. Almaniya, 18. Polşa, 19. Latviya, 20. Rumıniya, 21. İspaniya, 22. Macarıstan, 23. Gürcüstan, 24. Azərbaycan, 25. Rusiya, 26. Albaniya, 27. İtaliya.

Beləliklə, "Eruovision-2016" yarışması İsveçdə baş tutacaq.



# Kraliçadan qalmaqallı açıqlama

***Böyük Britaniya kraliçası II Yelizaveta hökumətin ölkənin Avropa Birliyinə üzvlüyü ilə bağlı referendum keçirilməsi barədə qanun qəbul edəcəyini bildirib.***



Kraliça bu haqda ölkə parlamentində çıxışında deyib. II Yelizaveta referendumun 2017-ci ilin sonunadək keçiriləcəyini qeyd edib.

"Mənim ölkəm Birləşmiş Krallığın Avropa Birliyi ilə münasibətlərinə yenidən baxacaq və bütün üzv ölkələrin xeyri, maraqları naminə bu birlikdə islahatlara çalışacaq", - deyə kraliça II Yelizaveta vurğulayıb. Kraliça həmçinin qeyd edib ki, Böyük Britaniya Ukraynanın şərqindəki vəziyyətə görə, Rusiyaya təzyiqləri davam etdirəcək.

Bildiririk ki, mayın 7-də Böyük Britaniyada keçirilən parlament seçkisində baş nazir David Kemeronun mühafizəkar partiyası qalib gəlib.

Avropa Birliyinə üzvlüklə bağlı referendum keçirilməsi onun seçkiqabağı vədlərindən biri olub.

# Toni Bleyer istefa verdi

***Sabiq İngiltərə baş naziri Toni Bleyer Yaxın Şərq Kvartetinin Xüsusi Nümayəndəliyi vəzifəsindən istefa verib.***



Məlumata görə, İsrail-Fələstin probleminin həlli üçün ABŞ, AB, BMT və Rusiya tərəfindən yaradılan Yaxın Şərq Dördlüyündə təxminən 8 ildir xüsusi nümayəndə olan Bleyerin istefasının səbəbi açıqlanmayıb.

Qeyd edək ki, Böyük Britaniyanın 1997-ci ildən 2007-ci ilədək 73-cü Baş Naziri olan Toni Bleyer Leyboristlərin tarixində ən çox partiya liderliyində qalmış şəxsdir.

XX əsrdə ancaq Bleyerr və Marqaret Tetçer üç seçki nəticəsində hakimiyyətdə qalıblar.

# İstidən ölənlərin sayı 1118 nəfərə çatdı

***Hindistanda 50 dərəcəyə çatan istilər səbəbindən ölənlərin sayı 1118 nəfərə çatıb.***

Məlumata görə, Hindistan rəsmiləri ölü sayının artacağını bildirib. Qərbi Benqal və Orissa ərazilərində 24 nəfər, 46 dərəcə isti olan Telangana ştatında isə 226 nəfər dünyasını dəyişib.

Hindistan Meteorologiya İdarəsi Orissa, Jarkhand və Andra Pradeş ştatlarında 45 dərəcədən artıq istilərin olacağını bildirib.






**363** — Roma imperatoru Yulian (Julian) Sasani ordusuna qalib gəlib.

**1453** — Sultan II Mehmedin başçılığı altındakı Osmanlı ordusu İstanbulu fəth edərək Bizans dövlətinə son qoyub.

**1727** — II Pyotr Rusiya çarı olur.

**1848** — Viskonsin ABŞ ştatı olur.

**1918** — Azərbaycan parlamenti (Milli Şura) Antanta dövlətlərinin davamlı təzyiqlərindən sonra Azərbaycan şəhəri İrəvanın Ermənistana verilməsi haqda qərar qəbul edir.

**1924** — İspaniyada Rayo Vallekano (Madrid) klubunun əsası qoyulub.

# Stoltenberq: *"Hərbi əməliyyatlar bərpa oluna bilər"*

***Ukraynanın şərqində atəşkəs rejimi pozulmaqda davam edir.***

APA-nın TASS agentliyinə istinadən verdiyi məlumata görə, bunu NATO-nun baş katibi Yens Stoltenberq bəyan edib.



Vaşinqtonun beynəlxalq və strateji araşdırmalar Mərkəzində çıxış edən Y.Stoltenberq qeyd edib ki, bölgədə hər an hərbi əməliyyatlar bərpa oluna bilər: "Bu səbəbdən mən ABŞ, Almaniya və Fransanın səylərini tam dəstəkləyirəm. Böhran siyasi yolla həll olunmalıdır. Sülhün yolu isə Minsk razılaşmalarının yerinə yetirilməsidir".

NATO-nun baş katibi Rusiyanı qonşu dövlətlərin sərhədlərini pozmaqda ittiham edib: "Rusiya qondarma Donetsk və Luqansk xalq respublikalarına yardım göstərir, Krımı ilhaq edərək və silahlılara fəal dəstək verərək beynəlxalq hüququ pozur". Y.Stoltenberqin sözlərinə görə, Ukraynada baş verənlər Avropa qitəsində təhlükəsizliyin əsaslarını sarsıdır.

# İbrahimxəlil süfrəsi

*(inversiya)*

Mən də deyirəm, ey dad-bidad, görəsən o adam niyə vaxtının çoxunu xüsusi parçadan tikilmiş süsənli süfrə başında keçirir? Sən demə, süfrədə oturmaq nə dünya illərinə, nə də axirət illərinə qarışmırmış. Baxın, bu barədə "Əl-İxtisas" nə yazır: "... süfrədə oturmağı uzadın; çünki həmin müddət sizin ömrünüzdən hesab edilmir".

O adama beş demə, on de, on demə, on beş de, nəfsinimi cilovlayacaq? Quli-biyaban qarnını doldurmaqla məşğuldur; məlum məsələdir ki, qarnını doldurmağın qeydinə bu qədər qayimməqam qalan kəs qarnını halalla necə doldurursa, haramla da o cür doldura bilər. Pakı-təmizi natəmizdən ayırmağa vaxtımı var?

Süfrəyə dəvət edən də ona Allaha xatir yemək verir; özü də nə mükafat istəyir, nə də təşəkkürlər...

Amma o adam iki qardaşın – əvvəlcə İbrahimin, sonra da Xəlilin süfrəsinə dadanantək, kənddə az qala hamı İbrahimxəlil süfrəsindən danışmağa başladı. Əlbəttə, İbrahimxəlil olaraq, söhbət mənim süfrəmdən getmir. Söhbət unudulmaz türk



müğənnisi Barış Mançonun mahnı da qoşduğu Xəlil-İbrahim süfrəsindən (Halil-İbrahim sofrası) gedir. Sadəcə olaraq mahnının bir neçə misrasını xatırlatmaqla kifayətlənirəm:

*İllərdir sürüb gedən bir pay alma çabası...*
*...hələ çatal bıçak, qaşıq icad edilməmişkən,*
*İsmayıla enən qoç qurban edilməmişkən*
*bir qovğa başlamış ki, nəsib qismət uğruna...*

*...ağzı açıq gözü toxlar buyursunlar baş köşəyə:*
*buyurun, dostlar, buyurun Xəlil-İbrahim süfrəsinə...*

Əlbəttə, unudulmaz Barışın mahnısından dolayı, o adama Xəlil-İbrahim süfrəsinin mənasını çatdırmaq istəyənlər də tapılıb. Amma o adam da qayıdıb deyib ki, yaxşı bilirəm ki, bu işlər, bu "kirvə payının qabağını qaytarmaq" İbrahim və Xəlil qardaşlarının yox, o şair dediyiniz İbrahimxəlilin işidir. O getsin kitabdan və dəftərdən (qələmi və qələmin ucundakı ümidi nədənsə unudub) savayı heç nə tapılmayan süfrəsinin dərdini çəksin!

Burası aydındır ki, "Allahın sevimlisi" mənasında, əlbəttə, hər İbrahim "Xəlil-Xəlilullah" ola bilməz! Yəni həzrət İbrahimin (ə) qonaqpərvərliyi, hətta qonaq olmayanda süfrəyə oturmadığı və evdən qonaq axtarmağa çıxmağı bütün insanlıq üçün belə, bir üstünlük-istisna deyilmi? Üstəlik, həzrət İbrahim (ə) bircə nəfər qonağının üzünə çəkmədi ki, ey bəni-adam, qövmüm bütpərəst olan vaxtlar, yetkinlik yaşıma qədər təcrid olunub tənha yaşamağım yadındadırmı? Hələ atəşə verilməyimi demirəm. Ey bəni-adam, bunuca bil ki, oğlum İsmayılı sənə görə yox, Allahıma görə kəsmək qərarına gəlmişdim.

İndi mən eşidəndə ki, o adamın tez-tez qonaq olduğu iki qardaşın – əvvəlcə İbrahimin, sonra da Xəlilin süfrəsi quruya qalıb, yəni qədim-qayım Xəlil-İbrahim süfrəsitək, bir ucdan aşıb daşmır, anbarları bərəkətlə dolmur, səxavəti sellənmir... onda qələm tutan barmağımı dişlədim: and olsun qələmə və yazılanlara!

**P.S.**

***İnsanoğlu yoxsul olan kəsi süfrəsinin baş köşəsində əyləşdirir. Qəlbi, nəfsi yoxsul olanı isə Allahın fəzilətinə ismarlayır...***

**İbrahimxəlil**

*Fikrət Mursaqulov-60*

# Dünyaya ürəyi ilə baxan şair

Böyük intellektual təfəkkürə malik olan Fikrət Mursaqulov haqqında çoxdan eşitmişdim. Hətta "Borçalıdan keçən yollar" almanaxında onun iki şeirini oxumuşdum. Güclü erudik qabiliyyətə malik olan bu insan həyatı boyu öz yaradıcılıq manerası ilə müasirlərini heyrətləndirmişdir. Onun dünyaya baxışı saf poeziya bulağından süzülüb gələn ürəyinin çırpıntıları ilə həmahəng səslənirdi. Onun poeziya yollarındakı addımları mətinliyi ilə diqqəti çəkirdi. Bəlkə də poeziya Fikrətin həyat yolunun yoldaşı idi. Fikrət Mursaqulov dünya işığına həsrət qalsa da, onun elm və poeziya aləmindəki uğurları yoluna həmişə işıq salmışdır. Ürəyindən gələn poetik mənlik onun mənliyini yüksəklərə qaldıra bilmişdir.



Böyük rus yazıçısı Qoqol göstərirdi ki, həyat reallığı yazıçı həyatının güzgüsünə çevrilməlidir. Bu reallıq həyat həqiqətlərini əks etdirəndə yazıçı və şairin həyatı irəliyə doğru xalq içərisində addımlayır. Məhz Fikrətin yaradıcılığı da bu qəbilədəndir.

Həm də Fikrət həyatda olan reallıqları gözləri ilə yox, ürəyi ilə duymuşdur. O, dünyaya ürəyi ilə baxıb, yazıb, yaratmışdır. Özü də necə?! Həyatın bütün incəliklərini duya-duya...

Deyirlər həqiqi poeziya heç vaxt ölmür. Necə ki, onun xalqı yaşayır, həqiqi poeziya da həmişə yaşar olur – həmişəyaşıl ağaclar kimi.

Bizə belə gəlir ki, Fikrətin poetik tutumlu yazıları həyat uzandıqca daha da pərvazlanır:

*Tuş gəldimi sana yağı qarğışı,*
*Yolladımı yığvalina qar qışı?*
*Çox budadın yağış günü qar qışı,*
*Dillənəndə hey dilədin yaz günü.*

*Sən olanda qalaların dustağı,*
*Təpələndi ömrün-günün duz dağı,*
*Ovulanda göz yaşının duz dağı,*
*Gözlərini çoxlu sardı yaz günü.*

Göründüyü kimi şairin dərin poetik imkanlara malik olduğunun şahidi olursan. Şairin "Bu Tiflis" şeiri bu cəhətdən daha səciyyəvidir:

*Bu Tiflisin yolunu bilməsən,*
*Gözəlliyi harda gəzə bilərsən?*
*Bu Tiflisin dilini bilməsən,*
*Küçələrində aza bilərsən.*
*Bu Tiflisin hamamları,*
*Çayxanaları olmasa,*
*Bu Tiflisi*
*Bir özgə yerə yozardın,*
*Bu Tiflisi Tiflislikdən pozardın.*

Əsl ürəkdən süzülən misralardır. Fikrət heç vaxt özünü poeziya aləmində "dərdli", "qəmli" saymayıb, buna ehtiyac da duymayıb. Bəlkə də taleyin və böyük Allahın ona bəxş etdiyi çatışmazlıqlarla barışıb...

Həyata ürəyi ilə yanaşıb. Ona bu əməldə ulu Tanrı kömək etmişdir.

Baxın, görün Fikrət "Hanı məktubun sorağı" şeirində necə gözəl, düşündürücü epizodlar yaratmışdır:

*Səmtini dəyişdi*
*Məktubunu mənə gətirən təyyarə?*
*Sözlərin yıxılıb haçalandımı,*
*Məktubunu mənə gətirən təyyarə ilə birgə?*
*Yolundanmı çıxdı*
*Məktubunu mənə gətirən qatar?*
*Sətirlərin cırıla-cırıla*
*Qırılıb ovxalandımı,*
*Məktubunu mənə gətirən qatarla birgə?*
*Bəlkə məktubunu mənə gətirmək üçün,*
*Nə havaya təyyarə qalxıb,*
*Bəlkə də*
*Elə sən özün*
*Şübhəmdən keçən*
*Təyyarəyə dönmüsən.*
*Şübhəmdən keçən*
*Qatara çevrilmisən,*
*Sənə yolladığım məktubdan öncə?*

Görünür ki, şair kimdənsə məktub gözləyir. Lakin ümidi boşa çıxır. Bu ümidi reallığa çevirməyə nail ola bilir – poeziya dili ilə. Belə nəticə hasil olur ki, onun sevincinə şərik olmağa çağırır kimi isə...

Kim bilir, bəlkə, ürəyində sevdiyi sevgilisinə gileylənir...

Əlbəttə, Fikrətin poeziyasını böyük dahilərin poeziyası ilə bir araya qoymaq olar:

*Bu gələn yaşıl yazın*
*Bizə sözü bir nazdı,*
*Bu gələn yaşıl yazın*
*Gətirəni bir sazdı.*

*Bu yaz bir sözə gəldi,*
*Bu naz bir saza gəldi.*
*Bu gələn yaşıl yazın*
*Bülbülü bizə gəldi.*

Və nəhayət, bu yaz Fikrət 60 yaşında doğma Borçalıya gəldi, özü də təmənnasız.

...Gərək ki, onu sevə-sevə oxuya Borçalılar!..

**Elxan Əsgərov**

# İstanbul'un Fethi *(29 Mayıs 1453)*

Bugün 29 Mayıs 2015, İstanbul´un Fethi´nin 562. yılı. Bizans İmparatorluğu´nun başkenti olan İstanbul (Bizans), Fatih Sultan Mehmet tarafından 53 gün süren bir kuşatmadan sonra 29 Mayıs 1453´te fethedilmiştir. Tarihin çeşitli dönemlerinde birçok devletler tarafından 28 defa kuşatılmalara karşı koyan İstanbul´un aşılması güç olan ünlü surları, 29 Mayıs 1453 tarihinde aşılmış ve İstanbul (Bizans) fethedilmiştir.

Fatih Sultan Mehmet (II. Mehmet), Sultan II. Murat´ın oğlu olarak 1431 yılında Edirne´de dünyaya geldi. Edirne, İstanbul´un fethinden 91 yıl önce fethedildiğinden (1362) dolayı, İstanbul´un fethine kadar Osmanlı Devleti´nin başkentiydi. Babasının inzivaya çekilmesi sebebiyle tahtını oğluna bırakması üzerine II. Mehmet, 13 yaşında padişah olmuştur. Osmanlı tahtına 13 yaşında bir çocuğun geçmesini fırsat bilen batı, ordu toplayıp Osmanlı Edirne üzerine yürümeye başlar. Bunu haber alan padişah Sultan II. Mehmet, o ünlü mektubunu babasına yazar.

Sultan Mehmet, mektubunda, babasına hitaben şöyle der;

-Baba, padişah sen isen, ordunun başına geç! Yok eğer padişah ben isem, emrediyorum ordunun başına geç!

Babası Sultan II. Murat Manisa´dan, başkent Edirne´ye gelerek tekrar tahta geçer ve haçlı ordularını bozguna uğratır.




1451 yılında Sultan II. Murat´ın ölümü üzerine 19 yaşında olan oğlu II. Mehmet, ikinci defa tekrar tahta çıkar. Tahta oturduğu günden itibaren Bizans´ı fethetmek düşüncesi kafasını meşgul eder. Hatta bu düşünce; "-Ya Bizans´ı alırım, ya da Bizans beni alır" diyecek kadar sabit fikir haline gelir. Bu düşüncesini uygulamaya koymak için hazırlıklara girişti. Bunun için Edirne´de beş büyük top döktürdü. Her bir topu 60 manda çekebiliyordu. 350 adet irili ufaklı gemi yaptırarak güçlü bir donanma meydana getirdi.

Bu hazırlıklar yaklaşık 2 yıl sürdü. Hazırlıklar tamamlanınca da 1453 yılının 6 Nisan günü, 150.000 kişilik bir orduyla Edirne'den gelerek, İstanbul´u kuşattı.

Günlerce süren yıpratıcı hücumlardan sonra ve kuşatmanın 53. gününde, bugünkü Topkapı ile Vatan Caddesi arasında bulunan Kale Kapısı denilen bölüm de bulunan surlarda açılan gediklerden Türk orduları şehre girerler. İstanbul'un Fethi ile birlikte Bizans İmparatorluğu da tarih sahnesinden çekilir.

İstanbul´un Fethi´nin 562. yılı kutlu olsun

Aşıq Məhəmməd Sadaxlı – 85

# Sinəsi söz yatırı aşıq

Bu günlərdə bir məclisdə ustad Aşıq Məhəmməd Sadaxlının 85 yaşının tamam olacağını eşidib sevindim, sonar da dərhal kövrəldim.

Sevindim ona görə ki, 85 yaş aşıq üçün, yaradıcı insan üçün sənətin kamillik zirvəsinə ucaldığı yaşdı, kövrəldim ona görə ki, mən hələ lap uşaq ikən ustad aşıq ellərimizdəki toy məclislərində uca boylu, şux qamətli, bahalı mahud parçadan zövqlə tikilmiş qalifeyi aşıq paltarında, enli toqqa kəmərli, par-par parıldayan çığıltılı, çəkmələrdə çox görmüşdüm, məclislərdə gözəl və məlahətli səsi ilə oxuduğu aşıq mahnılarını çox dinləmişdim. Onun şəxsiyyətinin və sənətinin vurğunu idim. Sonra da fikirləşdim ki, fürsətdi, ustadla görüşüb, onu bəri başdan təbrik edim, keçdiyi 85 illik ömür yoluna bir ayna tutum. Onun xatirələrini öz dilindən eşidim. Bu məqsədlə də üz tutdum böyük Sadaxlı elinin Mollaoğlu adlanan guşəsinə, ustad Aşığın yaşadığı dogma yurda.

Həyət-bacada səliqə-səhman, bağ-bağça göz oxşayır, dağlardan əsən sərin meh təmizlik, təravət gətirirdi. Samovar çayının ətrinə bata-bata ustad aşıqla şirin söhbətə başladıq. Ustad xatırlatdı ki, Mollaoğlu kəndinin adı əvvəllər Palıdlı olub. İlk məskən salan molla oğlu olub. Onun adı ilə kənd sonradan Mollaoğlu adlanıb. İlk məskunlaşan nəsil Daşdəmirli nəsli olub. İndi maşallah, sayılıb-seçilən ellərimizdən biridir.

Ustadın söylədiklərinə söykənəndə məlum olur ki, saz çalmağa 11-12 yaşı olanda başlayıb. O zamanlar aşıq Hüseyn Saraçlı müvəqqəti olaraq 3-4 il burada yaşayıb. Saz sənətinə həvəs və maraq da ustad aşıq Məhəmmədə elə bu zaman Hüseyn Saraçlı sazının sehri ilə yaranıb. 1951-1954-cü illərdə əskərlikdə olan ustad cismən sazdan aralı düşsə də, xəyalən sazla bağlı olub, ürəyi dolanda tənhalığa çəkilib, havalar uydurub, misralar pıçıldayıb. 1954-cü ildə hərbi xidmətdən qayıdan kimi yollanıb birbaşa ölməz sənətkar ustad aşıq Xındı Məmmədin yanına şəyirdliyə. Saz sənətinin sehri və sirlərini ustadın dilindən və hərəkətlərindən zərrə-zərrə, damla-damla toplayıb, mənimsəyib, özününküləşdirib. Və nəhayət, məclislərin birində püxtələşmiş, kamilləşmiş aşıq kimi meydana çıxıb. Gözəl ifası, yanıqlı çalğısı ilə adını Borçalının məşhur və ulu ozanlarının siyahısına yazdırıb.



Həmişə yanında olan sazını köksü üstə kökləyib, "Ustadlara rəhmət" deyib, çalmağa başlayır. Çaldıqca-çalır, gah həzin bulaq pıçıltısının, gah qoç Koroğlunun Qıratının kişnərtisi eşidilir sazından.

Xəyalən zirvəyə qonmuş qartala bənzədirəm ustadı bu an. Sanki indicə geniş və qüvvətli qanadlarını açıb, mavi səmanın lap ənginliklərinə uçacaq…

Özü haqqında danışmağa təvazökarlıqdan doğan xəsisliklə yanaşır. Amma elə ki, ulu Borçalı aşıqlarından söz düşür, dərhal ruhlanır, cana gəlir, onlar haqqında həvəslə danışır: Daştəpə kəndində iki ustad aşıq varıydı – aşıq Məmməd və aşıq Şamil, özləri də dayıoğlu-mamaoğlu idilər, Soğanlıqda aşıq Sadıq, Seyidiqocalı kəndində aşıq Oruc, Qırxılıda aşıq Ziyəddin kimi məşhur aşıqlar var idi. Amma təəssüf ki, onlar haqqında mətbuatda məlumatlar az gedir. Bax, onlardan yazmaq, onları tanıtmaq lazımdır, deyir ustad.

Sonra Bəyazidli aşıq Məsim haqqında şövqlə danışmağa başladı. Hazırda mövcud olmayan bu kənd keçmişdə Qırxılı ilə Qayaqocalı kəndləri arasında olub, xarabalıqları və qəbiristanlığı indi də durur. Aşıq Məsim orada yaşayıb deyə izahat verir ustad. Sonra yaddaşından aşıq Məsimin iki şeirini vərəqə köçürüb mənə verir. Qardaşoğlu, bacarsan bax bu şeirləri çap elətdir deyir:

***Aşıq Məsim Bəyazidli:***

**Gözəl**

*Səbəb nədi gəlib pambıq dərirsən,*
*Söylə görüm, nədir günahın, gözəl,*
*Bu dünya fanidir, qəsd etmə cana,*
*Qozalar incidər barmağın, gözəl.*

*Qozalar açılıb ağlı-yumşaqlı,*
*Yanın da yoldaşı,körpə uşaqlı,*
*Özü həyalıdı, ağzı yamşaqlı,*
*Laləyə bənzəyir yanağın, gözəl.*

*Əcəb seyrangahdı Qaçağan düzü,*
*Sürməli ceyrana bənzəyir gözü,*
*Məsim qonaq gəlsin əlində sazı,*
*Xalıynan bəzənə otağın, gözəl.*

**Gəldi-keçdi**

*Borçalı elində, yol kənarında,*
*Sallanıb qarşımnan yar gəldi-keçdi,*
*Keçdi, soruşmadı əzri-halımı,*
*Gen dünya başıma dar gəldi-keçdi.*

*Al-yaşıl geyinib, xınalı dəsdi,*
*Yel vurub cığalı telləri əsdi,*
*Qıyqacı, baxışı səbrimi kəsdi,*
*Çiskinli, boranlı qar gəldi-keçdi.*

*Aşıq Məsim dərdin-qəmin kanıdı,*
*Şirinləblərinnən əmən çağıdı,*
*Bütün var əndamın can dərmanıdı,*
*Qıymadı, qoynunda nar gəldi-keçdi.*

Ustada söz verirəm ki, sağlıq olsun, inşallah, çap etdirərəm. Oğul-uşağın, nəvə-nəticənin içində (3 oğul, 4 qız, 20 nəvə, 16 nəticə) dağ döşündə bitmiş palıd ağacına bənzədirəm ustad aşıq Məhəmməd Sadaxlını.

Köklərin dərin, gövdən möhkəm, budaqların uzun və çalkeçir, yarpaqların sıx, kölgən sərin, qonaqlı-qaralı olsun, Ustad!

Beləcə yekunlaşır söhbətimiz Ustadla, Türk adətincə əllərini öpüb, gözlərimin üstünə qoyuram. Arxamca ustadın eyvandan "Ellərimiz var olsun" sözlərini söylədiyini eşidirəm.

Mən də ustadın sözlərinə cavab kimi elqızımız şairə Məhbubə xanımın ustad aşıq Məhəmməd Sadaxlıya həsr etdiyi şeirindən bu misraları pıçıldayıram:

*Dastançı aşıqsız, gözəl avazla,*
*Sehirli aləmsiz o telli sazla,*
*Deyən, qarışıqsız baharla, yazla,*
*Eşq də sizdə, yaz da sizdə, ay Ustad!*

*Şen olsun ocağınız, xananız,*
*Şərəflidi sizing ustad adınız,*
*Neçə-neçə dastanlar yaratdınız,*
*Yol da sizdə, iz də sizdə, ay Ustad!*

*Borçalının çox dəyərli oğlusuz,*
*Etibarda, əməlində doğrusuz,*
*Ustad Məhəmmədi Tanrı qorusun,*
*Ömür olsun yüz də sizdə, ay Ustad!*

**Əmiraslan Əlizamanlı,**
***Marneuli, Aşağı Qullar.***

# Putin Polad Bülbüloğluna "Şərəf" ordeni təqdim etdi

Rusiya prezidenti Vladimir Putin Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunu "Şərəf" ordeni ilə təltif edib. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, Kremlin Yekaterina zalında dövlət mükafatlarının təqdimetmə mərasimi keçirilib. Mərasimdə Vladimir Putin "Şərəf" ordenini səfir Polad Bülbüloğluna təqdim edib.

Səfir Polad Bülbüloğlu çıxışında Rusiya prezidentinə yüksək mükafata görə təşəkkürünü bildirib: "Sizin, Rusiya Federasiyasının prezidentinin əlindən "Şərəf" ordenini almağın yüksək şərəf olduğunu başa düşürəm. Mən sizə can sağlığı, böyük Rusiyanın xeyrinə fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram".

Rusiya prezidenti "Vətən qarşısında xidmətlərinə görə", "Hərbi xidmətə görə", "Şərəf" və "Dostluq" ordenlərini xalq təsərrüfatının müxtəlif sahələrinə və humanitar sahələrdə fərqlənən şəxslərə təqdim edib.

Vladimir Putin çıxışında dövlət mükafatı alanlara yaradıcı əməyinə, öz ölkələrinə sədaqətliliyinə və əldə etdikləri nəticələrə görə təşəkkürünü bildirib.



# Tbilisidə Türkiyə, Gürcüstan, Azərbaycan və Kərkük yazıçılarının görüşü keçirilib

***Tbilisidə "Varlıq" Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Türkiyə, Gürcüstan, Azərbaycan və Kərkükdən (İraq) gələn şair və yazıçıların görüşü keçirilib.***

Gürcüstan Elmlər Akademiyasında keçirilən görüşdə çıxış edən Kıbrıs-Balkanlar-Avrasiya Türk Ədəbiyyatları Qurumunun (KİBATEQ) rəhbəri Feyyaz Sağlam görüşün tanışlıq xarakteri daşıdığını bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin rəhbəri Rafiq Hümmət və bölmənin üzvləri, gürcü yazıçıları, KİBATEQ-in üzvləri görüşün tarixi əhəmiyyət kəsb etdiyini, ədəbi əlaqələrin daha da inkişaf etdiriləcəyini vurğulayıblar. Tədbirin sonunda türk və azərbaycanlı şairlərdən Şükrü Aydın, Mövlud Kaplan, Güzin Onralkan, Aişə Tural, Kərkükdən gələn Şəmsəddin Küzeçi, Səadət Buta, Fatma Aslan, Osman Əhmədoğlu və başqaları şeirlərini söyləyiblər.

İraqdan gələn Kərkük Mədəniyyət Dərnəyinin qurucusu Şəmsəddin Küzeçi İraqtürkmənlərini təmsil etdiyini bildirib: "Biz özümüzü Azərbaycanımızın bir parçası hesab edirik. Bu gün Gürcüstanda yaşayan azərbaycanlı şair və yazıçılarla keçirdiyimiz görüşlər bizi çox sevindirir".

Tədbirdə yazarlar kitablarını bir-birilərinə hədiyyə ediblər. Sonda görüş iştirakçıları xatirə şəkili çəkdiriblər.

Tədbirdə Gürcüstanın baş nazirinin köməkçisi Savalan Mirzəyev, Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşı Elcan İmamverdiyev, Gürcüstan parlamentinin üzvü Mahir Dərziyev, Gürcüstan barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət nazirinin müşaviri Zaur Dargallı, gürcü türkoloqları, jurnalistlər və QHT nümayəndələri, həmçinin bölgələrdən gələn azərbaycanlı yazıçı və şairlər iştirak ediblər.






# Bakıdan məktub

Hörmətli Fazil müəllim,

Salamlarım və xoş arzularım Sizin üçün daimidir. Qızım Aynurə Sizinlə olan söhbəti xoş təəssüratlarla mənə çatdırdı. Qızıma qarşı olan hörmət və sayğınıza görə, rəhmətlik Muxtar müəllimin, Gülxu xalanın və mənim ünvanıma söylədiyiniz xoş sözlərə, qızıma verdiyiniz məsləhətlərə, isti qayğıkeş münasibətə və qəbula görə, minnətdarlığımı çatdırıram.

Fazil müəllim, “RegionPress” qəzetində Borçalıda anadan olmuş və başqa ölkələrdə nailiyyətlər əldə etmiş həmvətənlər (özümü də Borçalılı hesab edirəm) haqqında məlumatlar verdiyinizi nəzərə alaraq bir nəfər haqqında Sizə məlumat vermək istəyirəm.

Abbas Nəsibov 1910-cu ildə Marneuli rayonunun Kəpənəkçi kəndində anadan olub, 1936-cı ildə Tiflis Dəmir Yolu İnstitutunu qurtarıb, fəaliyyətini Azərbaycanda davam etdirib, yüksək nailiyyətlər əldə etmiş, işgüzar, bacarıqlı, məsuliyyətli işlərinə görə, Ağstafa, Gəncə, Kürdəmir, Mincivan, Xaçmaz stansiyalarında yol distansiyalarının rəisi vəzifəsində çalışmışdır. Müharibə (1941-45-ci illər) vaxtı fəal işlərinə görə Stalinin Abbas Nəsibovun adına göndərdiyi teleqram Borçalı oğlunun işinə münasibətindən, əldə etdiyi nailiyyətlərdən xəbər verir (həmin teleqramı Sizə göndərirəm).

A.Nəsibov iki övlad atasıdır. 1983-cü ildə vəfat etmiş, Kəpənəkçidə dəfn edilmişdir.

O nəslin davamçısı olmuş Hidayət Mahmud oğlu da 1930-cu ildə Kəpənəkçidə anadan olmuş, 1949-cu ildə əmisi Abbas Nəsibovun məsləhəti ilə Azərbaycana gəlmiş və həyatının 63 ilini dəmir yoluna həsr etmiş, 2012-ci ildə təqaüdə çıxmışdır. Hidayət Nəsibov da əmisi kimi dəmir yolunda böyük nüfuza sahib olmuş, “fəxri dəmiryolçu” adına layiq görülmüş, müxtəlif vəzifələrdə çalışmış, dəmir yolu rəhbərliyinin və tabeçiliyində olan işçilərin hörmətini qazanmışdır. Azərbaycan dəmir yolları idarəsində işlədiyim vaxtda H.Nəsibovla yaxından tanış olmuşam.

Onu da qeyd edim ki, “Azərbaycan Dəmir Yolları” QSC-də Borçalıdan olan xeyli adam çalışır, hamısı da böyük nüfuz və hörmətə malikdirlər.

Borçalıların tanıdılması məqsədi ilə atdığınız addımlar alqışa layiqdir, gənclərin tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. “Borçalıları tanıyaq və tanıdaq” yolunda Sizə uğurlar arzulayıram.

Hörmət və ehtiramla, özünü həmişə borçalılarla hesab edən, borçalılara böyük hörmət bəsləyən Sizin Vidadi müəllim (Məmmədrzayev)

**Tarixdən bir yarpaq**

***Stalinin teleqramı***

Zaqafqaziya dəmir yolu idarəsi və yol həmkarlar ittifaqı komitəsinin orqanı olan “Bolşevistkaya putyovka” qəzetinin 20 fevral 1945-ci il 22\2767\ saylı nömrəsində belə bir teleqram dərc edilmişdir.

Ağstafa, Zaqafqaziya dəmir yolu

Ağstafa yol distansiyanın rəisi, mühəndis-mayor Nəsibova,

Partiya təşkilatının katibi Çaparlıya,

Yerli komitənin sədri Heybətova

*Xahiş edirəm yol. Bağırov adına tank dəstəsinin tikintisi üçün 72 000 rubl, 152 000 rubl dəyərində dövlət istiqraz vərəqəsi və istifadə olunmamış məzuniyyətlərə görə 176 000 rubl kompensasiya toplayan Ağstafa yol distansiyasının işçilərinə mənim qardaşlıq salamımı və Qızıl Ordunun təşəkkürünü yetirəsiniz.*

**İ.Stalin**

Moskvadan daxil olan 9435 nömrəli teleqrama əsasən və tank dəstəsinin tikintisinin yaxşı təşkilinə görə yol rəisinin müavininin 13 fevral 1945-ci il 1018 nömrəli əmri ilə distansiyanın rəisi Nəsibova, partiya təşkilatının katibi Çaparlıya və yerli komitənin sədri Heybətova təşəkkür elan edilmişdir.

**Redaksiyadan:** *Tarixin yaddaşlarda iz qoyduğu hər an vaxt keçdikcə xatırlanarkən daha təqdirə layiq olur. Məhz buna görə xalqımızın faşizmə qarşı ölüm-dirim mübarizəsində göstərdiyi rəşadəti və yüksək vətənpərvərliyi yada salmağı öz müqəddəs borcumuz hesab etdik. Əbəs deməyiblər ki, “Unutsaq unudularıq”.*

# Gürcüstanda “Associated Press”in azərbaycanlı fotomüxbirinin sərgisi açılıb

***Gürcüstan Mədəniyyət Nazirliyinin, Tiflis meriyasının və “Kolqa Tbilisi foto” təşkilatının təşəbbüsü ilə Tiflisdə fotoqrafların müsabiqəsi keçirilib.***



APA-nın Gürcüstan bürosunun məlumatına görə, müsabiqəyə 40 ölkədən 9 min foto daxil olub və 4 nominasiya üzrə qaliblərin adı açıqlanıb. Məşhur “Associated Press” agentliyinin Qafqaz üzrə fotomüxbiri, soydaşımız Şahvələd Əli oğlu Eyvazov müsabiqənin qalibi olub və Gürcüstanda foto sənətinə verdiyi töhfələrə görə Aleksandr Roinişvili adına mükafata layiq görülüb.

Tiflisdəki İosif Qrişaşvili adına Tbilisi Tarix Muzeyində Şahvələd Eyvazovun çəkdiyi fotoları sərgisinin açılışı keçirilib. "Müharibə xətti" adlanan sərgidə Ş. Eyvazovun 60-dan çox foto əsəri nümayiş olunub. Sərgidə nümayiş olunan fotolar Osetiya, Abxaziya, Dağlıq Qarabağ və Çeçenistan müharibələri zamanı çəkilib.

Sərgi mayın 9-na kimi davam edib.

Qeyd edək ki, Şahvələd Eyvazov 23 ildir “Associated Press” agentliyi ilə əməkdaşlıq edir.

Ş. Eyvazov APA-ya açıqlamasında müharibənin ünvanı olmadığını bildirib: "Bu sərginin keçirilməsi məni 20 il əvvələ aparır. Çox kədərlənirəm. Anaların göz yaşı hələ də gözümün önündən getmir. Bu müharibələr istər Qarabağda, istərsə də Abxaziya, Sxinvali və Çeçenistanda insanları evsiz-eşiksiz qoyub, neçə-neçə körpə ata-anasız qalıb, neçə-neçə ailə yox olub, torpaqlar işğal edilib. Bax, bu kədəri, qəmi mən fotolarıma köçürmüşəm, lakin bu kədər-qəm hələ də mənim ürəyimdə yaşayır”.

# İslamda kişi qadından üstündürmü?

***Qadın, ya da kişi, fərq olmadan, bütün müsəlmanlar Quran əxlaqını ən gözəl şəkildə yaşamağa cəhd göstərməlidirlər.***

Allahın insanlar üçün hidayət rəhbəri olaraq endirdiyi İslam dini qadına böyük dəyər verir. Allah Quranın bir çox ayəsi ilə qadını və qadın haqlarını qorumuş, cahil cəmiyyətlərdə qadınlara qarşı olan yanlış dünyagörüşünü ortadan qaldırmış, qadına cəmiyyət içərisində hörmət qazandırmışdır. Rəbbimiz Quran ayələriylə insanlara Allah Qatında üstünlük ölçüsünün cinsiyyət deyil, Allah qorxusu, iman, gözəl əxlaq, ixlas və təqva olduğunu bildirmişdir.

Allah Quranda qadın və kişi arasında fərq qoymamış, bütün insanları ümumi bir müsəlman modelinə tabe olmağa çağırmışdır. Müsəlman Allahdan qorxan, hər işində Allahın razılığını axtaran, dünya həyatının keçici, ölümün isə yaxın olduğunu bilib, axirəti hədəfləyən insandır. Qadın, ya da kişi fərq olmadan, bütün müsəlmanlar Quran əxlaqını ən gözəl şəkildə yaşamağa cəhd göstərməlidirlər. Quran əxlaqını mənimsəyən qadınlar da bütün zəifliklərdən, acizliklərdən və düzgün olmayan davranışlardan uzaqlaşaraq, imanın qazandırdığı güclü xarakterə sahib olarlar. İman sahibi insanlar yaşadıqları cəmiyyətdən, ailələrindən, ya da dost-tanışlarından gördükləri təlqinlər nə olursa-olsun, bunları bir kənara qoyar, Quranda ifadə edilən müsəlman xarakterini yaşayarlar. Mömin qadın da Allahın bəyənib məmnun olacağı əxlaqı və xarakteri Qurana əsasən təyin edib mənimsəyər.

Quran ayələrinə ümumi şəkildə nəzər saldıqda Allahın qadın və kişiyə ortaq xitab şəklindən istifadə etdiyini görürük. Allah Quranda insanın gənc, yaşlı, qadın, ya da kişi olmasının deyil, səmimi qəlbdən iman etməsinin önəmli olduğunu bildirir. Buna görə də Quran ayələrində qadına və kişiyə birlikdə xitab edir və hər ikisinin də eyni məsuliyyətlərə sahib olduqlarını xatırladır. Quranda bu şəkildə bir çox ayə var. Allah Quranın, “Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz.” (Nisa Surəsi, 124) ayəsində səmimi iman etdiyi zaman insanın qadın, ya da kişi olmasının heç bir əhəmiyyəti olmadığını, heç bir haqsızlığa uğramadan, mütləq Allahın rəhməti və Cənnəti ilə qarşılıq görəcəyini xatırlatmışdır.

Allah Quranda inkar edənlər haqqında məlumat verərkən də qadınlara və kişilərə eyni şəkildə xitab edir. Allah inkar edən qadınlarla inkar edən kişilərin, münafiq qadınlarla münafiq kişilərin və müşrik qadınlarla müşrik kişilərin də axirət günündə eyni şəkildə qarşılıq görəcəyini, cinsiyyətlərinə görə fərqli qarşılıq görməyəcəklərini bildirir.

İman edən bütün insanlar kimi müsəlman qadının da tək rəhbəri Qurani-Kərim və Peyğəmbərimiz (səv)-in sünnəsidir. Mömin qadın bütün şəxsiyyətini, xarakter xüsusiyyətlərini, həyat tərzini, ideallarını, istəklərini, rəftarını və əxlaqını Qurana və Peyğəmbərimiz (səv)-in tövsiyələrinə görə təyin edir. Hər işlərində Quranı rəhbər etdikləri və Peyğəmbərimiz (səv)-in əxlaqını nümunə götürdükləri üçün daim məqsədəuyğun hərəkət edir, hikmətli qərarlar verir və buna görə də etdikləri hər işdə ən yaxşı nəticələri görürlər.

Bundan başqa cahiliyyə əxlaqının qadınlara yaşatdığı bütün narahatlıqlardan və çətinliklərdən uzaq həyat yaşayırlar. Allahın “Mömin olaraq yaxşı iş görən kişi və qadınlara əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.” (Nəhl Surəsi, 97) ayəsiylə mömin qadınlara və mömin kişilərə vəd etdiyi kimi gözəl həyat yaşayırlar.

**Nərmin Kərimzadə**

# Bəhram İsmayılov:
## *Kəndimizi gözəl və firavan görmək istəyirəm!*



**Nəzərli kəndindən Qardabani rayon bələdiyyəsinə seçilmiş deputat Bəhram Ziyəddinoğlu ilə müsahibəmizi oxucularımıza təqdim edirik.**

*İsmayılovBəhram Ziyədinoğlu 1953-ci il oktyabr ayının 15-də Qardabani rayonunun Nəzərli kəndində anadan olub. O, 1969-cu ildə Kosalı kənd orta məktəbini bitirdikdən sonra, elə həmin ildə də Azərbaycan Dövlət Tibb İnustutunun Pediatriya fakültəsinə daxil olur. 1976-ci ildə İnustutu bitirən Bəhram İsmayılov azadtəyinatla doğma vətəninə qayıdır. Həmin ildən dəo, Rustavi şəhərindəki uşaq xəstaxanasında pediatr həkim kimi əmək fəaliyyətinə başlayır.*

*Sonra Bəhram Ziyəddinoğlu 1980 ci-ildə Qardabani rayonunun Vaxtanqisi kənd ambulatoryasında uşaq həkimi, sonralar isə həmin ambulatoriyanın baş həkim vəzifəsinə təyin edilir.Bir çox ixtisaslara yiyələnən Bəhram İsmayılov 1988-ci ildə Nəzərli kəndində kənd ambulatoryasını yaradır. Bu ambulatoriya respublikada ilk gündüz stasionar polikilinika statusunu alır. Elə həmin poliklinikanın baş həkimi işləyən soydaşımız 2002-ci ildə xalqın etimadını qazanaraq kənd deputatı seçilir. Sonralar Nəzərli kəndi üzrə Qardabani rayon icra hakimiyyətinin səlahiyyətli nümayəndəsi kimi vəzifələrdə çalışır.*

*Hal hazırda Qardabani rayon sakrebulosunun mojoritar deputatıdır. O, həm də Qardabani rayon ictimai səhiyyə idarəsinin direktoru müavini vəzifəsində çalışır.*

*Ailəlidir. 3 övladı var.*

**-Bəhram müəllim, kəndinizdə bu günə qədər görülən işlər barəsində oxucularımıza məlumat verməyinizi xahiş edirik.**

- Qeyd edim ki, kəndimiz rayonmuzun ən böyük kəndlərindən biridir. Kəndimiz 1800-ə yaxın təsərrüfatdan ibarətdir. Kəndin 6 min nəfər sakini var. Kənd sakinlərinin əsas məşğuliyəti isə kənd təsərrüfatı və maldarlıqdır. Son illər ərzində kəndimizdə böyük işlər görülüb. Küçələrin asvalt örtüklə bərpa edilməsi, küçələrdə gece işiqlarının qurulması, kəndə internet kabel sisteminin çəkilməsi, kənd məktəbinin əsaslı təmir edilməsi, kənddə kiçik müasir idman meydançasının qurulması kimi işlər aparılmışdır. Görüləcək işlərmizdə, hazırda yenədə davam etməkdədir.

**- Bəhram Ziyəddinoğlu, yeri gəlmişkən, kəndinizdə hansı yeni işləri görməyi nəzərdə tutursunuz?**

Onu bildirim ki, dövlətin kəndlərdə apardığı “kəndlərin inkişafı” adlı proqram çərçivəsində kəndimiz üçün vacib olan uşaq bağçası binasının bərpa edilməsini, kənd arası küçələrinin çınqılla eləcədə asvalt örtüklə təmir edilməsini, bəzi yeni salınmış küçələrə təbii qaz xətlərinin çəkilməsini həyata keçirmək qarşımızda duran əsas vəzifələrdəndir. Bu işlərin görünməsinə isə yaxın günlərdə başlanılacaq. Qeyd edim ki, artıq mərhələ-mərhələ kəndimizin sosial - infrasturuktura, problemləri həl edilməkdədir.

**- Bəhram İsmayılov, kəndinizingələcəyini necə görmək istəyərdiniz?**

- Mən işlədiyim illər ərzində hər zaman kənd ağsaqqaları, bir qrup müəllim heyəti, gənclər və eləcədə bəzi kənd sakinləri ilə kənd haqqında, kənddə görüləcək işlər barədə, kəndimizin rayon səviyyəsində daha nümünəvi və fəal bir kənd kimi olmasını düşünərək, bununla əlaqədar vaxt aşırı kənddə toplantılar keçiririk, fikir mübadilələri aparırıq və ümümi qərar qəbul edirik. Mən Nəzərli kənd sakini kimi hər zaman kəndimizi firavan və gözəl görmək istəyirəm. Buna görə hər zaman elim-obam üçün kəndimiz üçün xidmət etməyə çalışacam. əlimdən gələni heç zaman əsirgəməyəcəm.

**Nadir Almazoğlu**

# Əfsanəvi azərbaycanlı haqda film çəkilir



***Azərbaycan və Polşa ordu quruculuğunda iştirak edən azərbaycanlı hərbçi haqda film çəkilir.***

Axar.az-a verilən xəbərdə deyilir ki, I Dünya müharibəsində iştirak edən, 1918-ci ilin sentyabrından Milli Orduda korpus komandirinin yanında eskadron komandiri olan Vəlibəy Yadigarov haqda sənədli film ekranlaşdırılır.

Çəkilişlər üç ölkədə aparılır. Filmin rejissoru Tahir Əliyevin verdiyi məlumata görə, sənəndli filmin çəkilişləri Gürcüstanda və Polşada artıq yekunlaşıb. İyun-iyul aylarında Azərbaycanda da çəkilişlər bitdikdən sonra film tamaşaçıların ixtiyarına veriləcək. Rejissorun sözlərinə görə, filmin çəkilişlərində polşalı həmkarları da iştirak edir.

Filmin polşalı rejissoru Leji Lyubax, tərəfdaş qurum isə “Koleydoskop” kinostudiyasıdır. T.Əliyev bildirib ki, Varşava çəkilişlərində Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov da yaxından iştirak edib. Rejissor H.Həsənovun filmin ideya müəlliflərindən biri olduğunu vurğulayıb. Sənədli film Mədəniyyət və Turizm nazirliyinin sifarişi ilə,”Salnamə” kinostudiyası tərəfindən lentə alınır. Filmin ssenari müəllifi Ramil Ələkbərov, prodüseri Məhsim Məhsimovdur.

Filmə texniki dəstək RTV-yə (Region TV) aiddir. Qeyd edək ki, Vəlibəy Yadigarov 1918-ci ilin sentyabrından Milli Orduda korpus komandiri yanında eskadron komandiri olub. XI Ordu Bakıya basqın edəndə Üçüncü Şəki süvari alayının pərakəndə dəstəsilə vuruşa-vuruşa Gürcüstan ərzisinə çəkilib. 1921-ci ilin martınadək bolşeviklərə qarşı vuruşub və həmin il əvvəlcə Türkiyəyə, sonra Polşaya mühacirətə gedib. Polşada "Armiya Krayova" xalq ordusunda əməliyyat şöbəsində süvari rəisi və 10-cu süvari atıcılar əlahiddə diviziyasının komandiri olub. Vəlibəy Yadigarov Polşaya hücum etmiş hitlerçi qəsbkarlara qarşı 1939-cu il 11 sentyabrda təşkil olunan müdafiə kompaniyasında iştirak edib, Mazovetski süvari briqadasının qərargah rəisi işləyib. Polşanın işğalından sonra “Armiya Krayova”nın (AK) tərkibinə daxil olan "Olen" alayının komandiri kimi Varşava üsyanında iştirak edib. Müharibədən sonra Vəlibəy Yadigarov Argentinaya mühacirət edib. 1971-ci il dekabrın 13-də Buenos-Ayresdə vəfat edib. 2000-ci ildə nəşi Polşaya gətirilib və təkrar dəfn edilib.

# TEYMURLƏNG BARƏSİNDƏ FİLM

***Amerika Birləşmiş Ştatlarının «Universal Pictures» film istehsal edən şirkəti Temurləng barəsində film çəkir. Onu da bəri başdan qeyd etmək yerinə düşərdi ki, Hollivudun böyük kino dünyasına çevrilməsində bu studiyanın da müəyyən rolu vardır.***



Hollivudun bu mühüm və miqyaslı layihəsi üzərində gürcü bəstəkarı David Yevgenidze də işləyir. Sənətsevərlərə yaxşı məlumdur ki, istedadlı gürcü bəstəkarı David Yevgenidze bir qayda olaraq tamaşalar və filmlər üçün musiqi yazır, bir çox ölkədə konsertlər verir, beynəlxalq festivallarda iştirak edir. İndiyədək o, 54 filmə musiqi bəstələmişdir. 1987-ci ildə Nyu-Yorkda ilk tamaşasını qoymuş və bir neçə beynəlxalq mükafatın laureatidir.

David Yevgenidze bu böyük layihə barəsində və bu layihəyə düşməsi barəsində belə deyib:

-Bu filmin prodüseri «Universal Pictures»-in Rusiyadakı nümayəndəsi Devid Cenkdir. Devid prodüser Marta Maqilevskayanı yaxşı tanıyır və onunla işgüzar əlaqəsi var. Mən də ki, Marta ilə iki film üzərində bərabər işləmişəm. Ümumiyyətlə, Moskvada iki il yaşadığım dövrdə 9 film və 5 serial üçün musiqi yazmışam. Məhz elə Marta məni Devid Cenklə tanış etdi. Bundan sonra bir bəstəkar olaraq layihəyə qatılmağım məsələsi həll olundu. Mənim musiqimi amerikan tərəfi dinlədi və artıq təsdiqlənmişdir də. Onu da qeyd edim ki, mövzunun xarakterindən irəli gələrək, Şərq musiqi alətlərindən də istifadə etmişəm.

Düşünürəm ki, tarixi- sərgüzəşt janrında olan maraqlı film alınacaq. İllah da ki, onun ssenarisi üzərində məhz elə Oskar mükafatını alan, «Qladiator» filminin ssenarisini yazan sənətkar işləyir.

Bu layihədə Amerikadan başqa Teymurləngin özünün iz buraxdığı bütün ölkələr iştirak edir. Filmdə müxtəlif yaşa malik bir neçə Teymurləng ilə rastlaşacağıq. Teymurləngin ən yaşlı vaxtını Cek Nikolson canlandıracaq. Yüksək büdcəli layihənin dəyəri 400 milyon dollardan artıqdır. Baxaq, görək, necə başa çatdırılacaq. Mən musiqinin çox hissəsini artıq yazmışam.

Teymurləngin həyat və fəaliyyətinin hansı müstəvidə göstərilməsi, hansı baxımlardan təhlili hər halda bizim üçün də maraqlıdır.

**Mirzə Məmmədoğlu**

***Təbrik edirik!***

# Beynəlxalq Akademiyaya üzv seçilmişdir



***Bu günlərdə həmyerlimiz, Y.Qoqebaşvili adına Telavi Dövlət Universitetinin doktorant-mazunu, etnopedaqogika elmi sahəsi üzrə Gürcüstanda ilk mütəxəssis Sərdar Alı oğlu Yusubov təhsilin informatikləşdirilməsi üzrə Beynəlxalq Elmlər Akademiyasının assosiasiyativ üzvü seçilmişdir. Sərdar müəllimi bu münasibətilə təbrik edir, ona elmi yaradıcılığında daha böyük uğurlar diləyirik.***

**– Sərdar müəllim bizim üçün çox maraqlıdır, necə oldu ki, Siz dissertasiya müdafiə etməmiş Beynəlxalq Akademiyaya üzv seçildiniz?**

– Mənim Beynəlxalq Akademiyaya üzv seçilməyim nə təsadüf deyil, nə də, necə deyərlər, birdən-birə olmadı. Bu işin mənbəyi Gürcüstanda yeni elm sahəsi olan etnopedaqogika üzrə 2012-ci və 2014-cü illərdə Batumidə keçirilən Beynəlxalq elmi konfranslarda çıxış etdiyim bir neçə maraqlı məruzələrdən başlanır.

**– Maraqlıdır, bu Akademiyaya Gürcüstandan başqa kimlər üzv seçilmişdir?**

– Mənim bildiyim odur ki, bu Akademiya 2014-cü ilin oktyabrında Batumidə keçirilən III Beynəlxalq elmi konfransdan sonra yaradılmışdır. Onun yaradıcılarından biri də mənim elmi rəhbərim, Gürcüstan elm və cəmiyyətin inkişaf fondu “İntellekt”in prezidenti Quram Çaçanidzedir. Təqribən 2 ay bundan əvvəl o həmin Akademiyaya haqiqi üzv seçilmişdir. Mənim seçilməyimdə isə həm onun, həm də etnopedaqogika sahəsi üzrə Türkiyəli həmkarlarımın böyük təsiri olmuşdur.

**– Sərdar müəllim, deyə bilərsinizmi, yuxarıda adını çəkdiyiniz Beynəlxalq Akademiyanın üzvləri əsasən hansı dövlətlərdəndir?**

– Bu Akademiyanın yaradıcıları və üzvləri əsasən III Beynəlxalq elmi konfransın iştirakçısı olan dövlətlərdəndir. Bu dövlətlər Gürcüstan, Azərbaycan, Ermənistan, Estoniya, Litva, Belarus, Ukrayna, Moldova, Qazaxıstan, Bolqarıstan, Almaniya, Yunanıstan, Polşa, Kamboca, Vyetnam və əsas təşkilatçı dövlətlərdən biri olan qardaş Türkiyə dövlətidir. Çünki onlar da III Beynəlxalq elmi konfransda iki universitet ilə - Ərzurum Atatürk Universiteti və Ağrı İbrahim Çeçen Universiteti ilə təmsil olunmuşdular.

**– Sərdar müəllim, gələcək iş planlarınız, elmi yaradıcılığınız, yeni yaradılmış Beynəlxalq Akademiya ilə münasibətləriniz barədə bir neçə söz...**

– İş planlarımız çoxdur. Qarşıda Akademiyanın Elmi Şurasının iclasları, beynəlxalq elmi konfranslar və simpoziumlar durur. Əlbəttə, bu tədbirlərə də qatılacam, öz elmi məruzələrimlə elmi tədbirlərin hamısında çalışacağam ki, çıxışlar edim.

**– Müsahibə üçün təşəkkür edir, sizə elmi yaradıcılığınızda uğurlar diləyirik!**

**“RegionPress”**

# LİBERLAND

***(referat əvəzi)***

Eşitmiş olarsan: bu yaxınlarda Çexiya Respublikasından bir nəfər vətəndaş Xorvatiya ilə Serbiya arasındakı “neytral zonada” Liberland adlı yeni dövlət qurduğunu elan edib. Şüarının *“yaşa və başqalarının yaşamasına da icazə ver”* olduğu bildirilən dövlətdə rəsmi dilin çex dili olduğu da bəyan edilir.

Bunu da eşitməmiş olmazsan: Sovet İttifaqı dağılhadağıl Mirzə Qələmin əmisini də oxşar suçla şərə salmışdılar ki, bəs deməzsənmi, o, Gürcüstanla Türkiyə arasındakı “neytral zonada” yeddi kvadrat kilometrlik ərazidə dövlət qurmaq istəyir. Mirzə Qələmin əmisi də and-aman eləmişdi ki, həzərat, axı Gürcüstanla Türkiyə arasında heç bir neytral zona-filan yoxdur; nədən nahaqdan günah qazanırsınız? Məgər bilmirsinizmi ki, istər aşkar, istərsə də gizli günahı dərhal tərk etmək lazımdır: çünki günahkarlar gec-tez əməllərinin cəzasına çatırlar!

Bu bəlkə də daha çox Süsən-Sünbül sxolastikasındandır: Türkiyədən yazanda deyirlər ki, bəs deməzsənmi, Türkiyəyə işləyir – Turan yaratmaqla məşğuldur; gözləyin, separatçılığa marçıltılı meyllidir. İranın eləcə azərkədə adını çəkmək kifayətdir ki, “iranşünas” adını alasan. Rusiya ilə bağlı məsələ də regenerativdir: səncə, “renesans” Ruhullaya “Rusiya prezidentinin rezidenti” ləqəbini Putinə olan “padşahpərəst”liyinə görəmi verdilər?

Qaldı Monqolustan...

Mirzə Qələm Monqolustanla bağlı, daha doğrusu, indiki Monqolustan ərazisində tapılan bəzi Orxon-Yenisey abidələri ilə bağlı deyil, monqol atları barədə – *monqol atsız, quş qanadsız olmur* – esse yazmışdı. Yazıda monqol mədəniyyətində monqol atlarının yeri – məgər on üçüncü əsrdə monqollar dünyanın az qala yarısını elə bu atların sayəsində tutmamışdılarmı? – araşdırılırdı. Süsən-Sünbüldə onu “Çingiz xanın törəməsi” adlandıran avantürist öz “kəşf”i ilə indinin özündə də karsalalıq eləyir.



Mirzə Qələm haqqında öz tərəfimdən baharbənd bunları deyə bilərəm ki, bu fədakar maarifçi daha çox Zərdabi, Vəzirov kimi “əkinçilər”in və üstəlik də Pestalotsinin (almanca: *Johan Heinrich Pestalozzi*) varisidir. Bunu da eşitmiş olarsan: Pestalotsinin devizi *“özüm üçün heç şey, özgələr üçün hər şey!”* olub. Yəni məktəb, məktəbdarlıq uğrunda cən fəda etmək hər bəni-adama dad-bidad müyəssər olmur axı!

Çala-çökük çuğulluq içimizdə çalağan yuvası qurduğundan bunu da deyim ki, “senzorlar” bir vaxtlar calaq əcnəbilərdən ibarət idi: məsələn, Mirzə Cəlil Məmmədquluzadənin vaxtında. “Anamın kitabı”nda Senzor deyir: *“...hökümət nəzərində sizi belə qələmə veriblər ki, [...] siz Rusiya islamlarını Türkiyə dövlətinə tərəf çəkib ittihadi-müslimində... iştirak edirsiniz”.*

Bəs indi heç bir xarici senzor olmaya-olmaya bu qədər çullu çuğul haralardandır? Bu yerdə belə məlum olur ki, eynən “Anamın kitabı”nın qəhrəmanlarından biri olan Səməd Vahidtək, bu çullu çuğulların bəziləri “cəmiyyəti-xeyriyyə məktəbində elmi-qafiyə dərsi” deyən bəzi “poeziya elmləri doktorları” imiş! Unudulmaz Sabir demiş:

*Moldayı, gördün nə iqdam etdi?! Amma, millət a!..*
*Az zəmanda nə sərəncam etdi?! Amma millət a!..*

Amma Mirzə Qələmə görə, bu çullu çuğulluğun əsas səbəbi bundadır ki, çox adam özünü Xeyir tərəfdarı və hətta Xeyir timsalı, rəqibini isə Şər tərəfdarı, üstəlik, Şər şahgülü hesab edir. Süsən-Sünbülün defisit və dəlizoğal dili ilə desək, Mirzə Halaypozan Şərxata bütün haşan-kaşanda və bütün heçə-puçalarda haqlıdır, amma Mirzə Qələm həmişə... haqsızdır! Deməli, günahkardır! Mirzə Halaypozan Şərxatanın ağlına bircə dəfə də olsun gəlməyib ki, Şərdən heç olmasa bircə, tək bircə Xeyir yapsın. Bir nəfər yorulmaz yelkənli yazarın yazdığıtək: *“Xeyir Şərdən başqa özgə heç nədən düzəlmir”.*

Mirzə Qələmə edilən donosbazlığın bircəciyi yadımda qalıb: milliyətcə abxaz Fazil İskəndərin adını başda çəkdiyi köşəni aparıb N. N. Məmurun masasının üstünə qoyublarmış ki, bəs deməzsənmi, bu Mirzə Qələm deyilən bizə düşmən kəsilən Abxaziyaya dəstək verir, bunun əyri burnunu qanadmaq lazımdır. N. N. Məmur da ədəbiyyatı bilən vəzifəlilərdən imiş. Deyir ki, get kanalizasiyanı təmizlə, Fazil İskəndər boyda yazıçıların Liberlandı, vilayəti-vətəni ədəbiyyatdır, insandır, insanşünaslıqdır, kitabdır, Kitabıstandır!

Kanalizasiya köləsi də qalır güruh gözlərini döyə-döyə...

**P. S.**

***Mən bəlkə də sənə əslində sənin də bəzi bildiklərini söylədim, amma bizim dediklərimiz, bildiklərimiz, hətta addımlarımız belə üzdədir, dayazdadır. Təkcə Həqiqətin addımları dərinə, dərinliklərə işləyir; çox-çox dərinliklərə!..***

**İbrahimxəlil**

# Marneulidə son zəng



Mayın 17-də Gürcüstanda fəaliyyət göstərən ümumtəhsil məktəblərində son zəng keçirilib. Son zəng ilə bağlı Marneulidəki orta məktəblərdə də tədbirlər qeyd olunub. Son zəng Marneulidəki 3 saylı Azərbaycan ümumi məktəbində də böyük bayram proqramı ilə təşkil edilib.

Tədbirdə həmçinin Marneuli 3 saylı ümumi məktəbin 63 illiyi də təntənəli şəkildə qeyd olunub. Tədbiri məktəbin direktoru Gülnarə Dərğallı açaraq əlamətdar və tarixi gün münasibətilə bütün məktəb müəllimlərini və şagirdləri, valideynləri təbrik edib və məktəbi bitirən 28 nəfər məzuna həyatda və ali məktəb yollarında uğurlar arzulayıb.

Sonra məktəbdə riyaziyyat müəllimi işləmiş qocaman müəllim Ənvər Kərimov, Məzunlardan hazırda rayon müəllimləri həmkarlar təşkilatının sədri Yaşa Çıldırlı, ziyalı Tofiq Hacıyev, Azərbaycanlıların Mədəniyyət Mərkəzinin sədri Fazil Həsənov çıxış edərək ürək sözlərini dedilər.



Gürcüstan Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət nazirinin Kvemo Kartli bölgəsi üzrə müşaviri Zaur Dərğallı və başqaları çıxış edərək məktəb məzunlarına gələcək təhsillərində uğurlar arzulayıblar.

AMM-in gənclər şöbəsinin rəhbəri, məktəbin ilk direktoru olmuş Əmirxan Əliyevin nəvəsi Nərgiz Əliyeva çıxışında qoca babasının məktəbin inkişafı üçün etdiklərindən danışmış, məktəb kollektivinə təşəkkürünü bildirərək məzunlara tövsiyələrini verib.

Məktəbin məzunları bildiriblər ki, 28 nəfər məzunun 80%-i ali məktəblərə qəbul üçün qeydiyyatdan keçiblər.

Tədbirdə Marneuli 3 saylı Azərbaycandilli orta məktəbin 1952-ci ildən fəaliyyət göstərdiyi bildirilib. Qeyd olunub ki, məktəbin fəaliyyəti illərində neç-neçə elm adamları, görkəmli şəxslər və ziyalılar, ölkədə təhsil sahəsində yüksək adlara layiq görülən və mükafatlarla təltif olunan müəllimlər də bu məktəbi bitiriblər.



Sonda məktəbin məzunlarının iştirakı ilə Azərbaycan, gürcü, rus dillərində şeirlər, mahnılar, rəqslərdən ibarət konsert proqramı təqdim edilib və səhnəciklər göstərilib.

Marneuli rayon Təhsil Resursları Mərkəzinin direktoru Ruslan Hacıyevin məlumatına görə, bu gün Marneuli rayonundakı 57 orta məktəbdə son zəng keçirilib: "Bu gün 57 orta məktəbdə son zəng keçirilib, bundan 35-i Azərbaycandilli orta məktəbdir. Bu gün Marneulinin məktəblərində 1250 nəfər orta məktəbi bitirib. Onlardan 800-dən çox şagird bu gün orta məktəbi uğurla başa vuran azərbaycanlı şagirdlərdir."

Tədbirdə məktəbə Azərbaycanlıların Mədəniyyət Mərkəzi tərəfindən Azərbaycan dilində nəşr olunan kitablar hədiyyə olundu.

**RegionPress**

# Sizə uğurlar olsun, onikincilər!

16 may 2015-ci ildə Marneuli rayonunun Ağməmmədli ümumi məktəbində görənlərə sevinc hissləri bəxş edən bir canlanma var idi. Bu gün bu qabaqcıl maarif ocağının qabağına toplaşanların sevincinin həddi-hüdudu yox idi.

Sevinirdilər ona görə ki, onların övladları, qardaş və bacıları onikiillik məktəb illərini arxada qoyub artıq müstəqil həyata qədəm qoyacaqlar. Sözün əsl mənasında bir daha 22 oğlan və qızın adları bu gün Ağməmmədli ümumi məktəbinin məzunlar kitabına yazılacaq.

...Gözlənilən vaxtın ilk anı gəlib çatdı. Aparıcılar Elvin Nəbiyev və Albina Nədirova sinif rəhbərləri Niyaz Məhərrəmovu onikincilərlə birlikdə şənliyin vida meydanına çağırdı. Onikinciləri ilk olaraq təcrübəli maarifçi, Ağməmmədli ümumi məktəbinin direktoru Əşrəf Tükənov təbrik etdi. Qasımlı kənd bələdiyyəsinin sədri Rövşən İsmayılov və onun müavini Fəridə Ayvazova da bu təbrikə qoşuldular. Sonra məktəbin tədris işləri üzrə direktoru Baris Nəzərov, müəllimlərdən Eldar Nəbiyev, Xatın Tükənova, Medeya Xaçidze, Afizər, Yuxsarə, Nəzakət, Ofelya Əliyevalar, Şahzadə Qurbanova, Adil Məmmədov, Zakirə Nəsənova, Nazir Omanov, Xəmməd Qocayev, Aida Nəbiyeva və başqaları çıxış edərək onikincilərdən Albina Nədirova, Elvin Nəbiyev, Şərqiyyə Əliyeva, Xəyalə Nəbiyeva, Aytac İsmayılova, Pərvin Bədəlova, Firudin Bağırov, Məhərrəm Səfərov, Türkan Çıraqova, Fatma Nəbiyeva və başqalarının adlarını qürurla çəkərək onlara ürəkdən xeyir-dualar verdilər.

Tədbirdə "Gənclər" ansamblının müşayiəti ilə məktəbin mahnı ulduzu Lamiyə İsmayılova və onikincilər Şərqiyyə Əliyeva, Albina Nəbiyeva, Aytac İsmayılova, Xəyalə Nəbiyeva, Nuranə Orucova və başqaları ana dilində və gürcü dilində şeirlər söyləyib, mahnılar oxudular. Sonda onikincilər öz ürək sözlərini söyləyib, onlardan aldıqları təlim-tərbiyəyə görə müəllimlərinə minnətdarlıqlarını bildirdilər.

"Əlvida məktəbli dostlar, əlvida hörmətli müəllimlərimiz", - deyib məktəb zənginə səmt aldılar...

Son zəng çalındı, onun sədaları çox uzaqlara yayıldı.

Onikincilər sevinc və intizar kövrəkliyi ilə öz doğma məktəblərindən durnatək uzaqlaşdılar.

Sizə uğurlar olsun, onikincilər!

**Şahvələd Ağakişioğlu (Tükənli),**
***Marneuli rayonunu Ağməmmədli ümumi məktəbinin musiqi müəllimi***

# Zəhmət adamı ucaldır

Onu çoxdan tanıyıram. Orta məktəb illərində və tələbəlik illərində də (Gəncədə) dostluq edirdik. Kürüstündə orta məktəb (1960-cı illərdə) bizim kənddə olduğundan qonşu kənddən gələn uşaqlarla tez tanış olub, dostlaşırdıq. Yaxşı oxuyan dostlarımızdan ağıllı məsləhətlər alırdıq. Onlardan şair, publisist və iqtisadçı Mülkədar Nadir, 70-ə yaxın elmi, elmi-metodik dərslik və dərs vəsaitinin müəllifi professor Məhəbbət Məmmədov, iqtisadçı Vəzir Əliyev, tarix müəllimi Rüstəm Dəmirçiyev və başqalarının adını iftixarla çəkə bilərik.

Mən onlardan biri – iqtisadçı Əliyev Vəzir Əsəd oğlu haqqında oxucularla fikrimi bölüşmək istəyirəm.



Əliyev Vəzir Əsəd oğlu 1951-ci ildə ulu Qarapapaq yurdu olan ağırelli Kürüstünün I Kosalı kəndində anadan olmuşdur. İlk təhsilini öz doğa kəndində, 8 illik məktəbdə almış, 1968-ci ildə Kəpənəkçi orta məktəbini bitirib, 1978-ci ildə isə Gəncədə Kənd Təsərrüfatı Akademiyasının iqtisadiyyat fakültəsini bitirib. O, həmin il təyinatla Azərbaycan Respublikasının İsmayıllı rayonunda "Nizami" adına kolxozda baş iqtisadçı vəzifəsinə təyin olunub. Kolxozun 70 yaşlı sədri Bilal Mahmudov bu gənc oğlanın istedadına, bacarığına, davranışına, iş yoldaşları ilə səmimi rəftarına, ağsaqqallara hörmətinə, fəhlələrin qayğısına qalmasına və kolxozun iqtisadiyyatına öz biliyini tətbiq etməyini görüb əvvəla ulu Tanrıya, sonra onun valideynlərinə və doğma vətəni olan Borçalı diyarına təşəkkürünü bildirmişdir.

Az müddət ərzində Əliyev Vəzirin iş təcrübəsini rayon rəhbərliyi bəyənir, həmin təcrübənin respublika miqyasında yayılmasını irəli sürürlər. respublika mətbuatında tez-tez onun iş təcrübəsindən maraqlı yazılar dərc olunur.

Bir gün İsmayıllı Rayon Partiya Komitəsinin birinci katibi və respublikanın ən dəyərli ağsaqallarından olan Qəşəm Aslanov Əliyev Vəziri qəbuluna çağırır.

Əliyev Vəzirin dediklərindən: "Mən Qəşəm müəllimin qəbul otağında olanda rayonun baş prokuroru İsmət Qayıbov, "Zəhmətkeş" qəzetinin baş redaktoru Musa Yaqub (şair), RXMŞ-in müdiri Valeh Hacıyev və respublika televziyasının bölgə müxbiri Valeh Musayev də orada idi. Qəşəm müəllim mənim iş təcrübəmdən çox müsbət fikirlər söylədi: - İstəyirəm bir gənc kadr kimi Vəzir balamızı geri qalan kolxoza sədr təyin edəm. İsmət Qayıbov (Allah rəhmət eləsin!) çox gözəl və mənalı çıxış etdi: Mənim məlumatıma görə, bu gənc oğlan qarapapaqların istedadlı balasıdır. Onun damarında axan qan saçından dırnağına qədər milli kök üstə köklənibdir. – Çox hörmətli Qəşəm müəllim, o kökün üstündə qeyrət, namus, zəhmət, halallıq və səmimiyyət var. İnanıram ki, sizin kimi müdrik ağsaqqalların etimadını doğruldacaqdır. İsmət müəllimin belə dəyərli çıxışından bir az sifətim qızardı. Qəşəm müəllim: - Utanma, ay Vəzir bala, bu deyilənlər qədim Borçalımızın urvatıdır.

Elə həmin gün məni "K.Marks" adına kolxoza sədr təyin etdi.

Əliyev Vəzir: - İstəyirəm, Qəşəm Aslanov haqqında oxuculara qısa məlumat verim. Qəşəm müəllimi biz yaşda olanlar çox yaxşı tanıyırlar. Bu mənim mənəvi borcumdur;

Qəşəm müəllim gənclik illərində Ermənistanın Basarkeçər rayonunda komsomolun birinci katibi işləmiş, "Azərbaycan gəncləri" qəzetinin baş redaktoru, Azərbaycan MK-də təbliğat və təşviqat şöbəsinin müdiri, bir neçə rayonun birinci katibi və neçə-neçə kitabların müəllifi olmuşdur. O mənim mənəvi atam, mən onun mənəvi oğlu oldum. İşlədiyim illər ərzində Qəşəm müəllimdən insanlığı, ədəb-ərkanı, insanlarla rəftarı və onun iş təcrübəsini öyrəndim. Ömrüm boyu onun mənə verdiyi "həyat tərbiyəsini" unutmayacam, həmişə ulu Tanrıdan ona rəhmət diləyirəm. Onun mənəvi dünyası o qədər zəngin idi ki, onunla görüşəndə adamın ruhu təzələnirdi. O milli kök üstə köklənmiş bir şəxs idi. Rayonda bəzi tədbirləri çalışırdılar ki, Nikitinin rəhbərlik etdiyi kolxoza salsınlar. Qəşəm müəllimin damarında axan qanı, qeyrəti buna imkan vermirdi. Belə tədbirləri mənim rəhbərlik etdiyim kolxoza salardı. Qəşəm müəllimin işində "polad" intizam var idi. O Azrbaycanın layiqli vətəndaşı kimi, hər qarış torpağını göz bəbəyi kimi sevər və onun çiçəklənməsi üçün ürəkdən çalışardı.

Əliyev Vəzir kolxoz sədri işlədiyi illərdə "K.Marks" adına kolxoz respublikanın Keçici Qırmızı Bayrağını aldı, 1982-ci ildə Moskva şəhərində Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçısı oldu. Dəfələrlə İsmayıllı rayon sovetinə deputat seçilmiş, bir neçə medalla, Fəxri Fərmana və mükafatlara layiq görülmüşdür. Torpaq ona namusla xidmət edənləri ucaldır, yüksəldir deyib babalarımız.

1985-ci ildə öz doğma vətəninə qayıdır, Marneuli rayon aqrar birliyində baş iqtisadçı kimi əmək fəaliyyətinə başlanır. 1989-cu ilin yanvar ayında Marneuli rayon kartofçuluq sovxozuna baş mühasib, sonra rayon kənd təsərrüfatı birliyi şöbəsinə baş mühasib təyin olunnur. 2005-ci ildən həmin şöbə ləğv olunnur. Hazırda öz ixtisası üzrə özəl təşkilatlarda fəaliyyətini davam etdirir.

Atası Əsəd əmi və anası Fəridə xala zəhmətə bağlı insanlar olublar. Zəhmətkeş insanların övladları da zəhmətsevər olmalıdırlar. Bu valideynlər 7 övlad böyüdüb ərsəyə çatdırıblar, onlardan 5 nəfəri ali təhsilidir. Nəvəsi Elcan nənə-babası kimi zəhmətə bağlı öz sənəti ilə əlaqədar olaraq Kürüstündə "Elcan-Ş" şirkəti təşkil edib, təzə tikilən binalara qapı-pəncərə düzəltməklə yeni iş yeri təşkil edir. O hələ balaca olanda nənə-babasının alın tərində olan duzun tamını görmüşdü. Vallah, zəhmət olan yerdə tərbiyə, halallıq, saflıq, bərəkət, urvat və insanlıq həmişə uca olur. Əliyev Vəzir deyir ki: "Bizim ali təhsil almağımızda böyük qardaşım Osman müəlimin çox zəhməti olubdur".

Bəli, Osman müəllim (alman dili müəllimidir) Borçalımızın çox dəyərli ziyalılardından biridir. O, tələbəlik illərində oxuya-oxuya müəyyən şirkətlərdə tərcüməçi işləyirdi. Onun şagirdləri harda varsa əxlaqına, tərbiyəsinə, vətən sevgisinə, bacarıqlarına, valideynlərinə hörmətinə və insanlıqlarına görə el-obaya baş ucalığı gətirirlər. o, hərtərəfli biliyə malik, birinci dərəcəli müəllim, prezident təqaüdçüsü, respublikanın metodist müəllimidir. Ondakı həssaslıq, nəciblik, zəhmətkeşlik, sadəlik və səmimiyyət insanı valeh edir. Bu qaynaqlar hardan gəlir? Bu ata sümüyünün halallığından və ana südünün müqəddəsliyindən irəli gəlir.

Əliyev Vəzir Əsəd oğlunun səmimiyyəti, mehribanlığı, elsevərliyi, mədəniyyəti, xeyir və şərdə canyananlıqla iştirakı el-obamıza böyük hörmət qazandırmışdır. O, yurdumuzun dəyərli oğlanlarının dəyərini gördükcə ulu Tanrıya min dəfələrlə şükürlər deyir. O, həyat yoldaşı Nəzakət xanımla birlikdə iki övlad – oğlu Elxan, qızı Emilyanı böyütmüşlər; beş nəvələri var; Şəfa, Ellada, Ziyəddin, Aysu və Məryəm.

Allah qorusun!

**Suddarxan Kazımov**



# Zəlimxan Yaqubun "Dünya çiçək, insan oğlu arıdı" adlı kitabı işıq üzü görüb

***Bu günlərdə xalq şairi Zəlimxan Yaqubun daha bir kitabı işıq üzü görüb.***

Azərbaycan Yazıçılar Birliyindən bildiriblər ki, "Dünya çiçək, insan oğlu arıdı" adlanan kitabda şairin son iki ildə yazdığı və indiyədək çap olunmamış şeirləri ilə yanaşı "Dahiləri belə gördüm", "Daş və tarix", "Aşıq Veysəl dünyası", "Turan sevgisi", "Şuşa şikəstəsi" və "Ün" poemaları yer alıb.

"Şərq-Qərb" nəşriyyatında çap olunmuş kitabın nəşrə hazırlayanı və redaktoru Musa Nəbioğludur.

Xatırladaq ki, bu, Z.Yaqubun 2015-ci ildə nəşr olunmuş üçüncü şeirlər kitabıdır. Bundan əvvəl şairin "Qürbət düşüncələri" və "Mənə ümid kimi bax" kitabları, eyni zamanda, Musa Nəbioğlunun Zəlimxan Yaqub yaradıcılığına həsr etdiyi "Sözün Zəlimxan zirvəsi" adlı kitabı oxucuların ixtiyarına verilib.

# Bakıda yeddi ulu ozan anıldı



*Türk dünyasının yeddi böyük dahisi: - Nəsimi, Xətai, Füzuli, Yemini, Virani, Pir Sultan Abdal, Qul Hümmət. Cari il mayın 7-dən 10-dək Bakıda "Azərbaycan-Türkiyə: yeddi ulu ozan" mövzusunda keçirilən Beynəlxalq Elmi Simpoziumda bir daha anıldı. Azərbaycan Milli Elmlər Akademiyasında gerçəkləşən sompozim AMEA Nizami adına Ədəbiyyat İnstitutu, AMEA Folklor İnstitutu, Hacı Bektaş Vəli Kültür dərnəyi və TİKA-nın birlikdə təşkili və dəstəyi ilə baş tutdu.*

*"Yeddi ulu ozan" elmi simpoziumunda dünyanın müxtəlif ölkələrindən yüzə yaxın tanınmış türkoloq-alim iştirak edirdi. Bu mötəbər elmi yığıncağa ev sahibliyi edən Azərbaycan Respublikasını akademiklərdən İsa Həbibbəyli, Muxtar İmanov, Teymur Kərimli, professorlardan Məhərrəm Qasımlı, Qəzənfər Paşayev, Bədirxan Əhmədov, Şəfəq Əlibəyli, Əhməd Qaşəmoğlu və bir çox alim təmsil edirdi.*

*Türkiyə Cumhuriyyəti də böyük bir heyətlə ölkənin müxtəlif nüfuzlu elm ocaqlarının ünlü bilim adamları ilə iştirak edirdi. Onların arasında professorlardan Nail Tan, Fikrət Türkmən, Hayraddin İvgin, Şərəf Bayraz və s. kimi böyük elm adamları da vardı.*

*İran İslam Respublikasını simpoziumda professorlardan Beytulla Cəfəri, Əli Əkbər Səfipur, Tohid Məlikzadə, Qazaxıstanı Əl-Fərabi Qazax Milli Universitetinin dosenti Əsgər Turqanbayev, Dağıstan Dövlət Universitetini dosenti Ağarəhim Sultanmuradov, Ruhaniyyət Musayeva və başqaları təmsil edirdilər.*

*Ölkəmizdən isə İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin professoru Mzisa Buskivadze və Ukrayna-Gürcüstan Beynəlxalq Elmi-Tədris İnstitutunun elmi işlər üzrə prorektoru, professor Mahmud Kamaloğlu iştirak edirdi.*

*Yığıncağın yekun iclasında simpozimun idarə heyəti tərəfindən AMEA Folklor İnstitutunun əməkdaşı, görkəmli folklorşünas alim Əli Şamilin simpoziumun işindəki böyük əməyi yüksək qiymətləndirilərək ona təşəkkür elan edildi.*

*Aşağıda həmyerlimiz, professor M.Kamaloğlunun simpoziumdakı çıxışının qısa mətnini veririk. Qeyd edək ki, onun çıxışı yığıncaqda böyük marağa səbəb olmuş və məruzə ətrafında xeyli müzakirələrlə davam etmişdi.*

## Pir Sultan Abdalın Borçalıda izləri

Qarapapaq türklərinin yaşadığı ərazilərdə - Borçalı bölgəsində çox sayda müqəddəs hesab edilən yerlər: ocaqlar, pirlər və s. dini inanclara bağlı ziyarətgahlar mövcuddur. Bu cür yerlər elə ilk yarandığı gündən indiyədək öz müqəddəsliyində qalmaqda, əhali tərəfindən böyük hörmət və ehtiramla daima yad edilməkdədir. Belə müqəddəs yerlərdən Marneuli rayonunun Qasımlı kəndindəki Qaraürgən, Araplı kəndindəki Dəmirçi künbəzi, Qara Seyidin ziyarətgahı (Marneuli rayonu), Böyük Bəylər kəndindəki Türyan ocağı (Marneuli rayonu), Abdallı kəndindəki Pir (Bolnisi rayonu), Mollaoğlu kəndindəki Pir təpəsi, Sadaxlı kəndindən QaraNər, Yetər nənənin ocağı, Mir Yunusun türbəsi (Marneuli rayonu), Qardabani rayonunun Candar kəndindəki Seyid Abbas ziyarətgahı, Başkeçidin (Dmanisi rayonu), Yırğançay kəndi yaxınlığındakı Hacıxəlil ocağı (təəssüflər olsun ki, hazırda Ermənistan sınırları içərisində qalmışdır) və s. misal gətirmək olar.

Bu dini ocaqlar arasında hamısından çox tanınan və müqəddəsliyi ilə daha çox məşhur olan Pir Sultan ziyarətgahıdır. Bu ziyarətgah Yağlıca dağının Güneyində Borçalı Qarapapaqlarının yaylaqlara gedən köç yolunun üstündə Meçidli Gorarxı kəndinin (Marneuli rayonu) təxminən 1-2 kilometr quzey səmtində kiçik bir təpənin üzərində yerləşir. Bəs bu ziyarətgah nəyə görə digərlərindən fərqlənir? Onu fərqləndirən başlıca və əsas səbəb nədir?

Təbii ki, digər ziyarətgahlar kimi ona da deyin deyirlər: qurban kəsirlər, nəzir verirlər. Belə ki, uzun müddət uşağı olmayan, xəstə olan, işi, gücüdür gətirməyən, səfərə çıxanlar qəbrin yanında qurban kəsər, müqəddəs övliyaya dualar oxuyar, ondan kömək diləyirdilər. Ziyarətgah yaylağa gedən köç yolunun üstündə olduğuna görə, oradan keçən hər bir mal-qoyun sürülərini aparanlar, orada dayanıb qurban kəsir və dua edirdilər ki, sürülərimizi mənzil başına sağ-salamat aparıb çıxaraq, yaylaq mövsümünü salamatlıqla başa vurub, qayıdanda da hökmən burada qurban kəsəcəyik. Bəzən də sadəcə olaraq, uğura çıxanların, yolu ziyarətgahın yanından keçirdisə, mütləq ora nəzər qoyurdular ki, səfərləri uğurlu alınsın. Hətta bəzən heç bir nəzir deməyən, sadəcə yaxınlıqdan keçənlər də oraya nəzir qoyar və ziyarətgahda uyuyan müqəddəs şəxsin ruhuna dualar oxuyardılar. Ziyarətgaha deyin deyib əməl etməyənlərin təsadüfən başına bir iş gəlsəydi, onlar çox peşmanlanar, üzülərdilər. Bir də belə etməyəcəklərinə and içərdilər.

Yerli Qarapapaq türklərinin söylədiklərinə görə, məhz bu ziyarətgahda dəfn olunan şəxs Pir Sultan Abdal dədədir. (Yeri gəlmişkən onu da qeyd etmək istəyirik ki, Pir Sultanı yerli əhalinin çox cüzi bir hissəsi şair-ozan kimi bilir). Əksəriyyət əhali onun məşhur din xadimi kimi tanıyır və qəbul edirlər. Bəzi versiyalarda ziyarətgah haqqında bir çox versiyalar söylənilməkdədir. Pir Sultanın ərəb mənşəli, islamiyyəti yayan bir şəxs olduğunu, digər bir versiyada isə onun üç qardaş olduğu və hər birinin Güney Qafqazda böyük kəramət sahibi olduğu söylənir. Ancaq təkrarən söyləyirik ki, elm sübut etmişdir ki, xalq etimologiyası dəqiq mənbə hesab edilmir. Qəbrin üzərində məzar daşı olmadığına görə (kim bilir, bəlkə də olmuşdur, ola bilsin ki, Sovet təbliğatının qadağasından dolayı yox edilmiş və ya başqa bir səbəb üzündənmi götürülmüşdür, dəqiq deyə bilmərik) onun dəqiq tarixini deməkdə çətinlik yaranır.




Yerli yaşlı sakinlərin öz gözləriylə gördükləri belədir ki, Sovet hökumətinin yarandığı ilk illərdə qəbrin üzərində kümbəz olmuşdur. Şahidlərin söylədiklərinə görə, kümbəz o zaman rayonda rəhbər vəzifəsində çalışan kommunistlər tərəfindən dağıdılmışdır. Ötən yüz illiyin 80-ci illərində yaxın kəndlərin əhalisi tərəfindən qəbrin ətrafına hərəm (hasar) çəkilərkən, (qəbrin ətrafında tikintini Marneuli rayonunun Keşəli kənd sakini Nizam Qurbanov apartdırırmış) xəbər rayon icraiyyə komitəsinin sədrinə çatır. Rayon mərkəzindən təxminən 4 kilometr aralıda yerləşən ziyarətgaha dərhal adam göndərilir və hasarın nəzərdə tutulan hündürlüyü yarıbayarıda yarımçıq saxladılır. Bu prosesin baş verdiyi həmin gün çox qəribə bir hadisə olur. Ölkəyə Azərbaycandan gəlmiş rəsmi qonaqları rayon icraiyyə komitəsi sədrinin maşını paytaxta – Tbilisiyə aparır və geri rayona dönərkən sürücü yolda böyük qəza törədir.

Ola bilsin ki, bu hadisələrin üst-üstə düşməsi tamamilə bir təsadüf idi. Ancaq yerli əhalidə bu hər iki hadisənin eyni gündə baş verməsi məhz ziyarətgaha edilən çox böyük haqsızlıq, hörmətsizlik kimi qəbul edilmiş və onun nəticəsi olaraq günahkarlar cəzalarını almışlar.

Görünür, zaman-zaman buna bənzər hadisələrin baş verməsi xalq arasında ziyarətgaha olan inamın günbəgün artmasına səbəb olmuşdur. Sovet hökuməti dağıldıqdan sonra qəbrin ətrafında yenidən, həm də daha hündür, böyük ölçüdə Alget (keçmiş Alget üzümçülük sovxozu) kənd sakini İsmayıl Cəlilov tərəfindən daş hasara alındı.

Ətraf Qarapapaq kəndlərinin əhalisi Pir Sultan ziyarətgahına o qədər böyük inam bəsləmiş və onun kəramətinə çox möhkəm inandıqları üçün ona sidq-ürəklə bağlı olan insanlar dünyasını dəyişərkən hətta vəsiyyət edirdilər ki, onları məhz həmin ziyarətgahda dəfn etsinlər. Təbii ki, əməlisaleh insanların vəsiyyətlərinə əməl olunurdu. Pir Sultanın qəbrinin yanında, ötən yüz illiyin əvvəllərində 3 nəfər şəxs də dəfn olunmuşdur. Onlar Borçalının Dəmirçihasannı nahiyyəsindəki Ağkeşəli kənd sakinləri Qıllözdü Anaqız nənə, Əfəndiöyündən Fatmanisə qarı və onun həyat yoldaşı Məmməd əfəndinin məzarlarıdır.

Bəs bu ziyarətgahda uyuyan bu müqəddəs insan – Pir Sultan kimdir? O, nə zaman yaşamışdır? Pir Sultan haqqında yerli yaşlı əhalinin keçmişlərə dayanaraq söylədiyi (yuxarıda qeyd etdiyimiz kimi) müxtəlif versiyalar vardır. Əksəriyyəti xalq etimalogiyasına söykənən həmin versiyalar o qədər də ağlabatan deyil. Bir də ki, təkrar edirik, xalq etimalogiyası o qədər də etibarlı mənbə hesab edilmir.

Bəs araşdırmaçı alimlər Pir Sultan haqqında hansı fikirlər söyləyirlər? Tanınmış Azərbaycan folklorşünas alimlərindən professor Sədnik Paşayev, professor Azad Nəbiyev və başqaları onun haqqında xeyli araşdırmalar aparmış, məqalələr çap etdirmişlər. Əlbəttə, Türkiyədə Pir Sultan araşdırmaçılarının sayı daha çoxdur. Onlardan professor Şərəf Bayraz, dosent doktor Ayten Kaplan, İstem Köçər Kələş, professor Gülağ Öz, Ali Yıldırım və s. onlarca tədqiqatçıların xeyli kitabları və məqalələri vardır. Bu elm adamlarının araşdırmalarından məlum olur ki, türk ölkələrində eyni adda bir neçə tanınmış şəxs olmuşdur. Bilim adamlarının fikirlərincə onların da hamısının kökünün eyni şəcərə ilə bağlılığı güman edilir.

Mərhum professor Sədnik Paşayevin bu sahədəki araşdırmaları daha maraqlıdır. Alim-araşdırmaçı hətta özünə Pirsultanlı soy adını da götürmüşdür. Professor özünün "Pirsultan dağdımı, kənddimi, şəxsiyyətdimi?" adlı məqaləsində yazır ki, "Pirsultan Gəncə yaxınlığında dağdı, Təbriz yaxınlığında kənddi, Türkiyədə isə şair, aşıqdı. Həmçinin müqəddəs övliyadır. Pir Sultan Abdal Türkiyənin Sivas vilayətinin Banaz kəndində dünyaya göz açmış, orada böyümüş, şair olmuşdur...".

Türkiyəli araşdırmaçıların kitablarında ulu ozan Pir Sultan Abdalın Sivaeda edam edildiyi yazılır. Onun cənazəsinin dar ağacından müəmmalı şəkildə yoxa çıxması da söylənilir.

S.Paşayev Pirsultanlı Şəcərəsinin tarixini XVI əsrə Pir Sultan Abdala gedib çıxdığını söyləyir. Bizim qənaətimizə görə, Pir Sultan toponiminin müxtəlif məkanlarda eyni cür adlanmaları ilə onların arasında müəyyən uyğunluq var. Elə Borçalı ərazisində Pir Sultan ziyarətgahının tarixi də təxminən orta əsrlərə gedib çıxması ehtimalı da daha ağlabatandır. Bu ziyarətgahdakı qəbrin Pir Sultan dədəyə aid olub-olmaması haqqında əlimizdə heç bir tarixi və elmi dəlillər olmasa da, orada uyuyan şəxsin bəlkə də, dədənin ən yaxın övliyalarından birinə aid olması versiyasına güman qaçır. Kim bilir, bəlkə də yanılırıq, günaha batırıq, ola bilsin ki, qəbir elə Pir Sultan dədənin özününküdür. Hər halda, yerli əhali onu uzun əsrlərdir ki, bu cür qəbul edib və ona tam əminliklə inanırlar.

Uzun illərdir ki, yeddi ulu ozan haqqında aparılan araşdırmalar göstərmişdir ki, onların hər biri böyük kəramət sahibi olduqları üçün sonralar bu ünlülərin qəbirləri xalq tərəfindən ziyarətgaha çevrilmişdir.

**Mahmud Kamaloğlu**

## Yeni nəşrlər







### *“Haqqa sarı”*

“Bütün Gürcüstan Müsəlmanları İdarəsi”nin (İdarənin şeyxi Hacı Ramin İgidovdur) nəşrə hazırladığı “Haqqa sarı” kitabı işıq üzü görüb. Kitabda Gürcüstanda yaşamış və indinin özündə də həyatda olan şair və yazıçıların Peyğəmbər (s), Əhli-Beyt və din xadimləri barədə qələmə aldıqları şeir və hədislər çap olunmuşdur. Kitab “Aşıqlar”, “El şairləri”, “Şairlərimiz”, “Yazıçılar”, “Dramaturgiyamız” adlı bölmələrdən ibarətdir. Kitabı yazıçı-publisist məşədi Əli Abbas tərtib edib. Redaktoru məşədi Nizami Məmmədzadə, kompyuter tərtibatçısı Vüsalə Nəsibovadır.

İlk dəfədir ki, bu səpgidə nəşr olunan kitabın oxucular tərəfindən rəğbətlə qarşılanacağına ümid edirik.

### *“Ömür hədər getməyib”*

Tbilisinin “Ustari” nəşriyyatında fədakar maarif fədaisi, sabiq məktəb direktoru, filoloq, əmək veteranı Təhməz Abbasovun “Ömür hədər getməyib” adlı kitabı işıq üzü görüb. Kitaba müəllifin müxtəlif vaxtlarda əsasən “Regionpress” qəzetində dərc olunmuş məqalələri, şeirləri və müəllifə həsr edilmiş müxtəlif səpkili bədii mətnlər, məktublar daxil olunub.

Nəşrin ideya vereni və ön söz müəllifi tanınmış yazıçı-tərcüməçi Emin Elsevər (Mahmudov), redaktorları Binnət Əlioğlu və Tapdıq Yolçudur.

Ümid edirik ki, “gələcəyin memarı – müəllim” olan müəllifin bu kitabı kitabsevərlər tərəfindən rəğbətlə qarşılanacaq.

### *“Mən bu elə bağlıyam”*

Gənc yaşlarından ədəbi yaradıcılıqla məşğul olan Nəsrəddin Kəpənəkçinin müxtəlif illərdə iki kitabı işıq üzü görüb. “Mən bu eldə doğulmuşam”, “Mən bu elin oğluyam” kitabları onun oxucularla sərbəst söhbətidir. Poeziya pərəstişkarları, yerli yazarlar onunla “söhbətdən” məmnun olmuşlar.

Ümidvarıq ki, el şairinin sayca üçüncü kitabı olan “Mən bu elə bağlıyam” kitabı da tələbkar oxucularımızın zövqünü oxşayacaq, ürəklərini riqqətə gətirən hiss və duyğuları müəllifin misralarında tapacaqlar.




## Rusiyanın əfsanəvi balerinası Maya Plisetskaya vəfat edib

***"Bolşoy Teatr"ın direktoru xəbər verir ki, Rusiya baletinin əfsanəsi Maya Plisetskaya 89 yaşında vəfat edib.***



Vladimir Urin bildirir ki, balerina Almaniyada infarktdan keçinib.

Rusiya prezidenti Vladimir Putin mərhumun ailəsinə və yaxınlarına başsağlığı verib.

Plisetskaya "Bolşoy Teatr"da 1943-cü ildən çalışırdı və 1960-cı ildə teatrın prima balerinası olmuşdu.

Onun məşhur rolları “Sonalar gölü”ndə Odette-Odile, “Yatmış gözəl”də Avrora və “Karmen”də Karmen idi.

Plisetskaya əri, bəstəkar Rodion Şedrinlə 1991-ci ildən Almaniyaya köçmüşdü.

## Başsağlığı

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Azərbaycanın xalq şairi ***Zəlimxan Yaquba*** əmisi **Xalid Alı oğlu Yaqubovun** vəfatından kədərləndiyini bildirir va mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***

## “Gürcüstan”-çılar Süleyman Əfəndinin 80 illiyini qeyd etdilər



Ömrünü mətbuata həsr etmiş, 40 ildən artıq “Sovet Gürcüstanı” (indiki “Gürcüstan”) qəzetinin redaktoru olmuş tanınmış jurnalist Süleyman Əfəndinin may ayının 5-də 80 yaşı tamam oldu. Onun qədirbilən kollektivi bu yubileyi onsuz qeyd etdilər. Süleyman Mə-həmməd oğlunun nəşinin uyuduğu Marneulinin Kürtlər kəndindəki qəbiristanlıqda ucaldılmış abidəsi önünə əklil və tər çiçək dəstləri qoyan kollektiv üzvləri onun insani keyfiyyətlərindən, intəhasız jurnalist təxəyyülündən, idarəetmə məharətindən ehtiramla söz açdılar. Gürcüstanda azərbaycandilli mətbuatın inkişafında əvəzsiz xidmətləri olmuş, əməyi dövlət və xalq tərəfindən layiqli qiymətini almış Süleyman Əfəndinin xatirəsinin yaddaşlardan silinməz olduğu dönə-dönə qeyd edildi...

...Ehtiramla yad olunanlar əbədiyaşarlardır!

**“RegionPress”**

## Rustavi şəhərində Güllü Tomarovanın ilk kitabının təqdimatı keçirilib

Mayın 13-də Rustavi şəhərindəki azərbaycanlıların təhsil aldığı 18 nömrəli məktəbdə istedadlı şairə-jurnalist Güllü Tomarovanın "Beləcə qal, nolar, könlüm!" adlı ilk kitabının təqdimatı keçirilib.

Tədbirdə Gürcüstanın və Azərbaycanın dövlət himnləri səsləndirildikdən sonra Rustavidə anadan olan və Qarabağ döyüşləri zamanı şəhid olan Farid Babanlının və son günlər Batumidə baş verən faciədə həlak olan üç nəfər rustavili məktəblinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Güllü Tomarovanın Azərbaycan əsgəri Farid Babanlıya həsr etdiyi şeiri məktəb şagirdləri tərəfindən ifa edilib.



Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin rəhbəri Rafiq Hümmət, Gürcüstan Aşıqlar Birliyinin sədri Osman Əhmədoğlu, filologiya üzrə fəlsəfə doktoru, professor Mahmud Kamaloğlu, qocaman jurnalist Emin Elsevər, Rustavi Mədəniyyət Mərkəzinin sədri Xaləddin Yolçuyev, Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri Nizami Məmmədzadə, istedadlı şairə Səadət Buta, şeir-sənət adamlarından Tapdıq Yolçu, Güləndam Murad, Şövkət Dağlarqızı və başqaları təqdim olunan kitab haqqında fikir və mülahizələrini söyləyərək şeirlərini söyləyiblər. Tədbirdə şagirdlərin ifasında Güllü Tomarovanın Azərbaycan, vətən, torpaq, ana və Borçalı haqqında poeziya nümunələri səsləndirilib.

Tədbirin sonunda Borçalı aşıqlarından Şahbaz Göyçəoğlu, Nargilə Mehdiyeva, Əfqan Şamilov və başqaları aşıq havalarını ifa ediblər. Sonda G. Tomarova tədbir iştirakçılarına və məktəb kollektivinə təşəkkür edib, sonra Gürcüstan və Azərbaycan mətbuatında dərc olunan şeirlərini oxuyub.

## “Gənclik”in ikinci dövrədəki uğurları

Birinci dövrənin sonunda biz cədvəlin yüksək pilləsində özümüzə yer elədik. Bizə verilən fasilədən səmərəli istifadə etməyə çalışdıq. Havaların qeyri-sabit keçməsinə baxmayaraq biz şəhər parkından, maarif şöbəsinin qarşısındakı sıx basdırılmış şamlardan və parkın pillələrindən istifadə edərək iki həftəlik səmərəli məşqlər təşkil etdik.

Bu təlim-məşq toplantısının nəticəsi olaraq 2-ci dövrə başlayan kimi biz “Opiza” (Tbilisi), “İberiya” (Tbilisi), “Alqeti XXI” (Tbilisi), “Avaza” (Tbilisi), “Sxinvali” (Tbilisi), “Duşeti” (Kaspi), komandalarını öz meydançalarında məğlubiyyətə uğradaraq Marneuli futbolunun nəyə qadir olduğunu paytaxt mütəxəssislərinə, klublara və futbol məktəblərinə göstərdik.

Çempionatın qurtarmasına 5 tur qalıb. Hər hansı maneə olmazsa, Marneuli futbolsevərlərini sevindirəcəyik.

Biz bütün oyunları total və xətti futbol üzərində qurduq. Oyunları rəqibin zonasına keçirərək diaqonal, köndələn və qövsvari ötürmələrlə rəqibi çaş-baş salaraq ilk dəqiqələrdən rəqibi meydançanın mərkəzindən başlamağa məcbur eləyirdik.

Mən qollar kralı haqqında danışmaq istəyirəm. Piriyev İlkinin hesabında 24 qol var. Ondan sonra 11 qolla “Rustavi – 2”nin oyunçusu gəlir. Elə bir oyun olmayıb ki, İlkin meydançanı qolsuz tərk elsin. Ən çətin oyunda belə İlkin özünün yüksək texnikasından istifadə edərək qol vurub.

**Əhməd İsmayılov**



Azərbaycanlıların Mədəniyyət Mərkəzi
Region PRESS
İctimai qəzet
№08 (183) 29.05.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır

**Şər qarışanda küçənin, bazarın, ağacın, gülün də rəngi qarışır.**
**Buludxan Xəlilov**

# Tanış olun:

## Seymur Kamran oğlu Qarayev – dünya çempionu

O, böyük idmana akrobatika ilə qədəm qoyub. 2 il məşğul olduqdan sonra tanınmış məşqçi Azər Məmmədovun rəhbərliyi ilə idmanın kinkboks növünə meyl salıb. Gərgin məşqlər öz bəhrəsini verib və 8 yaşında ikən ilk rəsmi görüşdən qalib ayrılıb.

Daha sonra idman aləminə yaxşı tanış olan Kaxa Çkadua onun bir idmançı kimi püxtələşməsi üçün əlindən gələni əsirgəməyib. İndiyədək müxtəlif beynəlxalq turnirlərdə əlbəyaxa döyüşün "K-1" növü üzrə 15 medal, 4 kubok qazanıb, 21 diplomla mükafatlandırılıb. Ümummilli lider H.Əliyevin xatirəsinə həsr olunmuş son yarışlarda da birinciliyi əldən verməyib.

Marneuli rayonundakı 2 saylı ümumi məktəbin 9-cu sinif şagirdi Seymur hələlik ən böyük uğurunu mayın 2-4-də İtaliyanın Verona şəhərində kinkboksun "K-1" növü üzrə keçirilən dünya birinciliyində qazandı. Seymur qürurla dünya kubokuna sahib çıxdı.



O, çox gəncdir. Parlaq gələcəyi isə onun əzmindən, iradəsindən və gecəli-gündüzlü məşqlərindən asılıdır.

Sənə adımızı, bayrağımızı yüksəltmək naminə böyük idmanda uğurlar arzulayırıq, Seymur!

**"RegionPress"**

# 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi günüdür

1950-ci il iyunun 1-də BMT Baş Assambleyası tərəfindən təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərara alınıb. Bundan sonra iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb.



Təbii ki, uşaq hüquqları da insan haqlarının ən mühüm və ayrılmaz hissələrindən biridir. Nəzərə alsaq ki, uşaqlar bizim gələcəyimizdir onların müdafiəsinə hamılıqla qoşulmaq bizim borcumuzdur.

# Tbilisidə Kamal Abdullanın dram əsəri oynanılıb

Gürcüstan paytaxtında Mədəniyyət və Abidələrin Mühafizəsi Nazirliyinin dəstəyi ilə Azərbaycan yazıçısı Kamal Abdullanın "Hərdən mənə mələk də deyirlər" adlı dram əsəri oynanılıb.



Tamaşada rolları Heydər Əliyev adına Tiflis Dövlət Peşəkar Azərbaycan Dram Teatrının aktyorları Binəli Islamoglu, Şeyla Cəfərova, Namiq Musayev, Leyla Qasımova və Vüqar Maşov ifa ediblər.

Qeyd edək ki, tamaşa Gürcüstan paytaxtındakı Atoneli teatrında oynanılıb.

# İsti ocaq, isti qucaq!

AVERSI

Marneulidəki "Aversi" klinikasının doğum evi hər bir ailəyə körpə gülüşü, körpə sevinci bəxş edir. Körpələrimizin sağlam böyüməsi üçün kollektivimiz onlara yüksək səviyyədə qulluq edir və hər birinin qayğısına qalırlar.



Burada çalışan çox dəyərli və çox güvənli mean-ginekoloqlar, akuşer heyəti və tibb bacıları fəaliyyət göstərirlər.

"Aversi" klinikasının meneceri Manan Kapanadze, baş həkim Vaja Baramidze, baş pediatr Maya Abaloidze bizim gələcəyimiz olan körpələri diqqətdən kənarda qoymurlar, onlara xüsusi vaxt ayırırlar. 5 illik fəaliyyətimizin bəhrəsi isə göz qabağındadır.

Qoy körpələrin gülüşü hamıya dərman olsun. Arzu edirik ki, bütün körpələrin yeri isti ocağımız, isti qucağımız olsun!

**Sevda Əsgərova**

# Borçalının fəryadı

*(Əzizim Sədaqətin vaxtsız ölümü münasibətilə şair qardaşım Mədəd Coşquna)*



Mədəd Coşqun, çox sarsıldım
Qızınızın ölümündən.
Mən özümə gəlməmişəm,
İnanın ki, həmin gündən.
Kövrəlmişəm, dinəmmirəm,
Dinməyə də yoxdur halım.
Allah səbrinizi versin,
Qardaş, sənin qadan alım!
Bir ağacın pöhrəsiyik,
Sədaqət – mən, a can-ciyər!..
Mən dərdinə laqeyd qalsam,
İlhamım məndən inciyər...
Sədaqətə yas saxlayan,
Həm yaxını, həm yadıdı!..
Mayqa Mətin şeiri də,
Borçalının laylasıdı,
Borçalının fəryadıdı!..

**Mayqa Mətin**

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi tanınmış şair-jurnalist ***Mədəd Coşquna*** qızı, məşhur jurnalist, BBC radiosunun prodüseri

**Sədaqət İsmayılovanın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

# İnsan başı başqa bədənə köçürüləcək

***İnsan başının digər bədənə köçürülməsi ilk dəfə Rusiyada reallaşa bilər.***

İtaliyalı neyrocərrah Sercio Kanavero hökumətdən razılıq aldığı təqdirdə, rusiyalı Valeri Spiridonovun başını digər insanın bədəninə köçürülməsi əməliyyatını keçirməyə hazırdır.



Əməliyyatın siyasi əhəmiyyətini vurğulayan Kanavero bir insanın başının digərinin bədəninə köçürülməsi üzrə ilk əməliyyatın aparıldığı ölkənin adının dünya tarixinə iri hərflərlə yazılacağını qeyd edib.

Neyrocərrah əməliyyatın texniki təfərrüatları barədə danışarkən pasiyentin başının 10-15 selsi dərəcəyədək soyudulacağını və bundan sonra onu 1 saat ərzində başqa bədənə "tikməyin" vacib olduğunu bildirib. Onun sözlərinə görə, Valerinin başı öz bədənindən ayrılandan bir neçə saniyə sonra yeni bədənə qoyulacaq, qan damarları bir neçə dəqiqə ərzində birləşdiriləcək, beyinin qan dövranı isə təxminən 15 dəqiqə ərzində bərpa ediləcək.

Nadir genetik xəstəlikdən əziyyət çəkən Valeri Spiridonov başın köçürülməsi üzrə əməliyyata razılıq verən ilk insandır. Xəstəlik nəticəsində onun əzələlərinin inkişafı dayanıb və səhhəti getdikcə ağırlaşmağa başlayıb. Bu səbəbdən də Valeri insan başını digər sağlam bədənə köçürməyə qadir olduğunu iddia edən Turin Universitetinin mütəxəssisi Sercio Kanaveroya müraciət etmək qərarına gəlib.

# Pikassonun "Əlcəzairli qadınlar"ı 179 milyona satılıb



Nyu Yorkda Christie hərracında Pablo Pikassonun "Əlcəzairli qadınlar" əsəri 179 milyon 365 min dollara satılıb. Hərracda bir neçə alıcı arasında kəskin mübarizə gedib.

Onların çoxu hərraca telefonla qatılıb.

# Lətifələr

*Müəllim dərs zamanı uşaqlara deyir:*
*-Pulu boş yerə xərcləməyin. Atanız onu alın təri ilə qazanır.*
*Bir uşaq deyir:*
*-Mənim atam alın təri ilə qazanmır.*
*-Bəs o pulu haradan alır?*
*-Buzxanada işləyir.*

***

*Bir uşaq mağazadan ayı oyuncaq alır və saxta pul verir.*
*Satıcı:*
*-Axı, bu pul saxtadı!*
*Uşaq:*
*-Guya bu ayı həqiqidi?*

***

*Bir nəfər çayda çimmək istəyir. Amma batmaqdan qorxur. Körpünün üstündə sərxoş biri oturubmuş. Bu da soruşur:*
*- Ay qardaş, suda batmaram ki?*
*Sərxoş deyir:*
*- Yox.*
*O suya girir, batır, boğula-boğula deyir:*
*- Bəs, deyirdin su dərin deyil?*
*- Eh, nə bilim, bayaq 3 ördək üzürdü, su sinələrindən idi.*

*Təsisçi:* *Azərbaycanlıların Mədəniyyət Mərkəzi (AMM)*
*AMM-in sədri:* **Fazil HƏSƏNOV**

*Redaktor:* **Binnət ƏLİOĞLU**
*Məsul katib:* **İbrahimxəlil**
*Texniki redaktor:* **Əkrəm QƏHRƏMANOV**
*Kompyuter tərtibatçısı:* **Bahar MƏMMƏDOVA**

*Redaksiyanın ünvanı:*
Marneuli şəhəri, Çolokaşvili küç. 3
İndeks: 3000 Tel.: (+995 357) 22 29 29
Faks: (+995 357) 22 57 88
E-mail: regionpress@yahoo.com
Qəzetimizi Facebook səhifəmizdə də oxuya bilərsiniz:
https://www.facebook.com/regionpress.AMM

**Qeydiyyat şəhadətnaməsi: 09.09.2004. №43/5 z—9**

Fakta və ifadə olunan fikrə görə məsuliyyəti müəlliflər daşıyır.
Qəzet pulsuz yayımlanır.
**TİRAJ: 2000**